23_27 IYUl-QARA.qxd 7/11/2024 11:08 PM Page 1

UNİKAL

№24 (2206) 12 iyul 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Danışıqların Vaşinqton raundu: ABŞ yeni saziş təklif edir, yoxsa...



Səh.9

## "Fransa Cənubi Qafqazı qarşıdurma meydanına çevirməyə çalışır" - Sahibə Qafarova

*Azərbaycan nəinki beynəlxalq hüququn norma və prinsiplərinin icrasını təkbaşına təmin edib, həm də xalqın 30 ilə yaxın axtardığı haqq-ədaləti də bərpa edib. "Unikal"ın məlumatına görə, bunu VI çağırış Milli Məclisin sədri Sahibə Qafarova bu gün BRICS ölkələrinin X Parlament Forumunun plenar sessiyasında çıxışı zamanı səsləndirib. O qeyd edib ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlayıb, keçmiş məcburi köçkünlər artıq öz dədə-baba yurdlarına geri qayıdırlar. VI çağırış Milli Məclisin spikeri...*

Səh.2

## "Yeni Prezident İranı xeyli qabağa aparacaq"



*Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, İran Prezidenti Məsud Pezeşkianın Qərblə münasibətlərdə hansı dəyişikliklər edə biləcəyindən, İran-Azərbaycan əlaqələrində gözlənilən yeniliklərdən, Zəngəzur dəhlizinin açılması istiqamətində nə kimi işlərin görüləcəyindən...*

Səh.4

## "Seçki ilə əlaqədar heç bir xüsusi hazırlıq işi aparılmır"



*Asayişin mühafizəsi digər hüquq mühafizə orqanları ilə birgə cari ilin sentyabr ayının 1-nə nəzərdə tutulan Milli Məclisə növbədənkənar seçkilər ərəfəsində və dövründə etibarlı təmin ediləcəkdir. Bu barədə "Unikal"ın sorğusuna cavab olaraq Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi...*

Səh.2

## Əli İnsanovun partiyası seçkidə iştirak qərarı verdi - Siyahı



*Haqq Ədalət Partiyası (HƏP) növbədənkənar parlament seçkilərində iştirakla bağlı qərar qəbul edib. "Unikal"ın məlumatına görə, bu barədə partiya sədri Əli İnsanov bildirib. HƏP-in 9 nəfər üzvünün namizədliyinin irəli sürülməsi təsdiqlənib. Həmin şəxslər aşağıdakılarıdır:*

Səh.6

23_27 IYUl-QARA.qxd 7/11/2024 11:12 PM Page 2



# Lalə: "Azərbaycan cəmiyyətində boşanmış qadına intim obyekt kimi baxırlar"



***"Sevdiyim yoxdur. Sevmək üçün insan fədakar olmalıdır. Təəssüf ki, sevgidən sonra gələn hissi yaşaya bilməmişəm".***

Bizim.Media xəbər verir ki, bu sözləri Əməkdar artist Lalə Məmmədova "Həftənin qonağı" verilişində deyib. Sənətçi sevgi ilə bağlı bu fikirləri səsləndirib: "Azərbaycan cəmiyyətində boşanmış qadına intim obyekt kimi baxırlar. Boşanmış qadına yalnız onu xoşbəxt etməyə qadir insan yaxın durmalıdır. O qadın bir dəfə yıxılıb, parça-parça olub. Ayağa durur, özünü yapışdırır. O qadının özündən ağır mənəvi yükü var. Hələ övladı varsa... Onu xoşbəxt edəcəksənsə, yaxın durmalısan. Sevilmək duyğusu qadını bütün plastik əməliyyatdan, kosmetikadan gözəl göstərir. Əgər bir qaşıq sevgi verib çömçə-çömçə burnundan gətirəcəksənsə, elə qadın tək qalsın. Qadın özünü xoşbəxt etməyi bacarmalıdır. Qərara gəldim ki, Azərbaycan kişisi xoşbəxt olmaq istəmir. Çünki eqosu birincidir. Mən, mən deyir".

# "Həyat yoldaşıma qurban olum, onun başına dönüm" - Səidə Sultan



***"Hərdən arada" mahnısı mənim özüməm. 6 illik sevgimin sonu pis oldu. Bütün günü onun haqqında düşünürdün. "Leyli Məcnun" niyə birləşmədi? Hörmət... Allahı yada saldım, 6 il əziyyət verdi, sonra elə ayırdı ki, bir də birləşdirmədi. İndi ən gözəl sevgi hörmətdir. Allah məni ondan xilas edib, kişi, mərd oğulun əlinə təslim etdi".***

Bu sözləri bu sözləri müğənni Səidə Sultan "Qapqara" yutub layihəsində deyib. İfaçı nakam sevgisindən danışıb. Səidə aparıcı, aktyor Kamran Ağabalayevin onun açıqlamalarından birində dediyi "Ailə qurduğum şəxs kişi xarakterli, qəhrəman, Koroğlu olmalıdır" xatırlatmasına belə reaksiya verib:

"Həyatımda Koroğlu var. Ona qurban olum, başına dönüm. Mən də dəli Nigaram. Onunla hara desəniz, ölüm də olsa gedərəm. O, yaxşı oğlandır. Səhvi olsa da, gedərəm. İndi yaşadığım sevgi nemətdir. "Leyli Məcnun" sevgisi lənət idi. Orada xəyallar qurmuşdum, hamısı dağıldı. Manyak idi, mənə əziyyət verirdi. İndiki sevgi mənə rahatlıq verir, incitmir".



# Roza səhnədə ağladı

***Müğənni Roza Zərgərli Lerikdə konsert verərkən kövrək anlar yaşayıb.***

"Unikal" shownews.az-a istinadən xəbər verir ki, o, səhnədə "Yaşa, Azərbaycan" mahnısını ifa edərkən şəhid qızının atasının şəkli ilə müğənninin şəklini çəkdiyini görüb və təsirlənib.

İfasını bitirən sənətçi səhnədən şəhidimizə rəhmət diləyib və bu gün rahat yaşadığımız üçün onlara borclu olduğumuzu bildirib.

# Xatirənin maşınında çəkilən videosu gündəm oldu



***Müğənni Xatirə İslam yayımladığı video ilə gündəmə gəlib.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, görüntülər ifaçının avtomobilində lentə alınıb. Xatirə maşında geyimini dəyişərkən onu lentə alıblar.

"Bir toydan o birinə Stres..." deyə, Xatirə paylaşımında yazıb.

# Dilarənin qızı Mədəniyyət və İncəsənət Universitetinə qəbul oldu



***Əməkdar artist Dilarə Əliyevanın qızı Mədəniyyət və İncəsənət Universitetinə qəbul olunub.***

Bu haqda sənətçi sosial şəbəkə hesabında məlumat yayıb. Dilarə qızının uğurunu bu sözlərlə bölüşüb: "Sevincimin həddi-hüdudu yoxdur. Banu çox istəyirdi ki, aktrisa olsun. Bir ilə yaxındır hazırlaşırdı. Nəhayət ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dram-Kino aktyorluğu fakültəsinə imtahan verdi və ən yüksək - 10 balı topladı. Yolu açıq olsun! Bütün balaların yolu açıq olsun. Uzun yolun başlanğıcındadırlar. Yazmağa da çətinlik çəkirəm, hərdən elə olur ki, hisslərini ifadə etməyə söz tapmırsan. Xoşbəxtəm, həm də kövrəyəm. Səbəbi məlum".

# "Bəsdirin, özü bilər necə yaşayır" - Renka

***"Hamı çalışır ağıl verməyə. Bəsdirin də. Hərənin öz taleyi, öz həyatı... Özü bilər necə yaşayır".***

Axşam.az xəbər verir ki, bu sözləri rəqqasə Rəna Ağamuradova (Renka) sosial şəbəkədə yazıb. Renka sosial şəbəkədə yazılan tənqidlərə reaksiya verib: "Həyat çox qəribədir. Plan qurub arxasıyca gedirsən, birdən hadisə baş verir və hər şey dəyişir".

23_27 IYUl-QARA.qxd 7/11/2024 11:13 PM Page 3






# Azərbaycanda I Milli Rəqabət Forumu keçirilib

***Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin təşəbbüsü ilə ölkədə ilk dəfə Milli Rəqabət Forumu keçirilib.***

Tədbirdə millət vəkilləri, məhkəmə orqanlarının nümayəndələri, dövlət qurumları, biznes assosiasiyaları və özəl sektorun təmsilçiləri, Vəkillər Kollegiyasının üzvləri, ali təhsil müəssisələrinin nümayəndələri və digər maraqlı tərəflər iştirak ediblər.

Forum ölkədə rəqabət sahəsində təkmilləşdirilən qanunvericilik aktları və institusional islahatlar, rəqabətədavamlı iqtisadiyyatın inkişafı, o cümlədən rəqabət problemlərinə dair effektiv tənzimləmə üsulları və hüquqi alətlər ətrafında müzakirələrin aparılması məqsədilə təşkil olunub.

Forum çərçivəsində ölkə başçısının sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapan dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasının əsas istiqamətlərdən biri kimi müəyyən olunması diqqətə çatdırılıb. Bu xüsusda, cari ilin 1 iyul tarixindən qüvvəyə minmiş Rəqabət Məcəlləsinin ölkəmizin sosial-iqtisadi inkişaf məqsədlərinin reallaşmasına xidmət edən islahatlar sırasında xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Qeyd olunub ki, yeni qanunvericilik aləti rəqabətin məhdudlaşdırılmasının qarşısını almaq, bazar mühitinin sağlam şəraitdə fəaliyyətini təmin etmək və istehlakçıların faydasını artırmaq üçün effektiv təsir imkanlarına malikdir. Məcəllənin tətbiqinin əhalinin sosial rifahının əsas elementləri olan iqtisadi artım və iqtisadi inkişafın təməlində dayanan azad rəqabətin formalaşması və bazarda çoxiştirakçılığın təmin olunmasına töhfə verəcəyi bildirilib.

Bundan əlavə, müxtəlif iqtisadi sektorlar, əmtəə və xidmət bazarlarında rəqabət problemlərinə dair yeni qanunvericilikdə genişlənən mexanizmlər barədə məlumat verilib. Həmçinin rəqabət tənzimləmələrinin sahibkar təbəqəsinin genişlənməsi, kiçik və orta biznes subyektlərinin bazara girişinin asanlaşdırılması, investisiya cəlbinin və iqtisadi fəaliyyətin dayanıqlılığının artırılmasına faydalarından söz açılıb.

Rəqabət və istehlakçı hüquqlarının müdafiəsi sahələrində istehlakçıların və bazar subyektlərinin müraciətlərinin qəbulu, emalı və çevik sənəd mübadiləsinin elektron qaydada əlçatanlığını təmin etmək üçün yaxın gələcəkdə yaradılması nəzərdə tutulan Elektron Rəqabət İnformasiya Sisteminin önəmi qeyd olunub.

Panel müzakirələri zamanı rəqabət siyasətinin iqtisadi inkişafa töhfəsi, rəqabət mədəniyyətinin formalaşması, rəqabət orqanının müasir çağırışlar fonunda rolu, işğaldan azad edilmiş ərazilərdə rəqabət siyasətinin tətbiqi xüsusiyyətləri, bazar subyektlərinin Rəqabət Məcəlləsinin tətbiqindən gözləntiləri, yeni rəqabət qanunvericiliyin sahibkarlara verdiyi imkanlar, vəkillərin sahibkarların hüquqlarının qorunması istiqamətində atdığı addımlar, elm və təhsil müəssisələrinin rəqabət siyasətinin icrasında rolu və rəqabət qanunvericiliyinə əməl edilməsinə nəzarət tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

# İsmət Abbasovun biznesi "batır"

## Sabiqlərin izi ilə: keçmiş nazirin şirkətləri ilbəil "geri gedir"

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Baş nazirin sabiq müavini və keçmiş kənd təsərrüfatı naziri İsmət Abbasov haqqındadır.***

O, İrşad Əliyevin ardınca 2004-2013-cü illərdə kənd təsərrüfatı naziri postunu tutub. Ardınca 2013-2018-ci illərdə Azərbaycan Respublikası Baş Nazirinin müavini olub. Həmin ilin aprelindən rəsmən təqaüdə göndərilib. İqtisad elmləri üzrə fəlsəfə doktorudur. YAP-ın



2021-ci ilin martında keçirilən VII qurultayında İsmət Abbasov Partiyanın rəhbər strukturlarından kənarda saxlanılıb.

İ.Abbasovun adı vəzifədə olduğu müddətdə bir neçə dəfə qalmaqallı məqalələrlə gündəmə gəlib. Daha sonra eks-nazirin Böyük Britaniyada yaşayan oğlu,iş adamı Yunis Abbasovun Londonda bahalı mal-mülkə sahib olduğu iddia edilib.

O, hazırda Bakıda yaşayır, təqaüdçüdür.

Bununla belə, sabiq nazir eyni zamanda öz biznesinin idarəçiliyi ilə məşğuldur. Bu biznesin ən önəmli parçalarından biri "Bakı Şərab -1" zavodudur.

Adıçəkilən zavodun İ.Abbasova bağlılığı barədə mətbuat illərdir yazır. Lakin o, həmin məlumatları bu günədək təsdiqləməsə belə, təkzib də etməyib. Hətta Abbasov nazir olarkən zavodun bağlanma təhlükəsi ilə üzləşdiyi, müəssisəni bu vəziyyətdən sabiq nazirin çıxardığı və öz nəzarətinə keçirdiyi bildirilirdi. Lakin İsmət müəllim o zamanlar da belə xəbərləri susqunluqla qarşılamışdı...

İsmət müəllim hazırda zavodu Əli Bayramova etibar edib. Ə.Bayramov 2007-ci ildən 2014-cü ilə kimi "Aqrolizinq" ASC-nin sədri vəzifəsində çalışıb. Abbasovun Kənd Təsərrüfatı naziri vəzifəsini tutduğu dövrdə işləmiş Ə.Bayramov onun ən yaxın kadrlarından biri, korrupsiya əməliyyatlarında "sağ əli" sayılırdı.

Mediaya açıq məlumatlardan "Bakı Şərab-1"də işlərin heç də kifayət qədər yaxşı getmədiyi aydınlaşır. Belə ki, bu ATSC 2022-ci ili 44 min 568 manat xalis zərər ilə başa vurub. Elə həmin il zavodun cəmi aktivləri 6,4% azalaraq 3 milyon 12 min 708 min manata qədər geriləyib.

Bir neçə il əvvəl isə İsmət Abbasovun Azərbaycandan 14 milyon dollardan artıq pul çıxardığına dair yerli KİV-də məlumatlar yayılmışdı. Eks-nazir tərəfindən təkzib edilməyən həmin məlumatlarda iddia olunurdu ki, sabiq nazir xaricə daşıdığı 11 milyon funt sterlinqdən (14 milyon dollardan artıq) çox pul İngiltərədə onun oğlu Yunis Abbasova aid Y.A. PROPERTY INVESTMENTS LIMITED şirkətinə yatırılıb.

"1985-ci il mart təvəllüdlü Yunis Abbasov sözügedən şirkəti hələ 2009-cu ilin noyabrın 8-də 07069377 saylı şəhadətnamə ilə qeydiyyatdan keçirib. Sənədlərdə şirkətin qeydiyyat ünvanı 19 Edinburgh Drive, Staines-Upon-Thames, England olaraq göstərilir. Y.A. PROPERTY INVESTMENTS LIMITED-in adı Yunis Abbasovun ad və soyadlarının baş hərflərini ifadə edir və daşınmaz əmlak alışı, icarəsi ilə məşğuldur" - deyə yerli KİV yazırdı.

Son iddialara görə, milyonlarla manatın yatırıldığı həmin şirkətin işləri də yolunda deyil. Onun zəif fəaliyyət göstərdiyi, hətta bağlandığı yönündə iddialar dolaşır.

Yeri gəlmişkən, Yunis Abbasovun bəzi eks-məmurların övladları kimi Londonun bahalı məhəllələrindən birində, Temza çayının sahilindəki villasında yaşadığı deyilir, əlavə edilir ki, o, yaxta sahibidir.Həmçinin, sabiq nazirin öz oğlu vasitəsilə Londonda başqa şirkətlər yaratdığına dair də iddialar var. Məsələn, o, İngiltərə paytaxtında "KAY INVESTMENTS LIMİTED" (qeydiyyat nömrəsi 07174206) adlı şirkət də açıbmış. Şirkət Londonda Aston House Cornwall Avenue-də fəaliyyət göstərib və daşınmaz əmlak biznesi ilə məşğul olub. Lakin maraqlıdır ki, bu şirkətin də fəaliyyəti uğursuz alınıb - açıldıqdan vur-tut bir il sonra qapadılıb.

Eyni aqibəti İ.Abbasovun yenə oğlu vaistəsilə Londonda yaratdığı başqa bir şirkətin - AIA LONDON LİMİTED-in (qeydiyyat nömrəsi 07182105) də yaşadığı deyilir. Digər şirkət kimi Aston House Cornwall Avenue Finchley ünvanında fəaliyyət göstərən bu şirkətin də bağlandığına dair məlumatlar gəzir.

Bir sözlə, nazir olduğu dönəmdə ölkə daxilində və xaricindəki biznesi bir qayda olaraq "çiçəklənən" Abbasovun işsiz qalması, təqaüdə göndərilməsi ilə birgə onun ailə şirkətləri heç də yaxşı günlərini yaşamır. Hətta sabiq nazirin özünün birbaşa nəzarəti və idarəçiliyi də onun biznesinin güclənməsi baxımından hər hansı effekt verməyib.

Və əgər belə davam etsə, İsmət müəllimin ailə şirkətlərinin yerində sadəcə "küləklər əsəcək"...

Onu da deyək ki, Abbasov bu günədək öz biznesi ilə bağlı mediada yer alan iddialara, xəbərlərə heç bir reaksiya bildirməyib, yazılanları, deyilənləri təsdiqləməsə belə, təkzib də etməyib.

***Toğrul Əliyev***

23_27 IYUl-QARA.qxd 7/11/2024 11:15 PM Page 4



# Danışıqların Vaşinqton raundu: ABŞ yeni saziş təklif edir, yoxsa...

***Məlum olduğu kimi, Vaşinqtonda ABŞ Dövlət katibi Antoni Blinkenin iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla görüşü keçirilib. Görüş Vaşinqtonda keçirilən NATO Sammiti çərçivəsində baş tutub.***

“Bu gün Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə bir yerdə olmaqdan çox məmnunam”. Bu sözləri ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə üçtərəfli görüşdə deyib. O bildirib ki, Azərbaycan, Ermənistan danışıqlar, o cümlədən dayanıqlı, layiqli və hər iki ölkə, region və ABŞ-la əlaqələr üçün böyük imkanlar yaradan sülh danışıqları istiqamətində vacib işlər görüblər. “ABŞ Avropa İttifaqı və digər həmkarları ilə birlikdə bu prosesə dəstək verib. Bugünkü görüş əldə olunmuş irəliləyişləri nəzərdən keçirmək üçün bir fürsətdir. Bütün təmaslar, o cümlədən son həftələrdə aparılan müzakirələrə əsasən düşünürəm ki, tərəflər ABŞ-ın da güclü şəkildə dəstəklədiyi sülh razılaşmasını əldə etməyə yaxındır. Bu gün ABŞ-ın razılaşmanın əldə olunması üçün nələr edə biləcəyini müzakirə etmək üçün bir aradayıq”, - deyə A.Blinken qeyd edib.



“NATO Ermənistan-Azərbaycan münasibətlərinin nizama salınmasını və davamlı sülh sazişinin bağlanmasını qətiyyətlə dəstəkləyir”. Bunu isə NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ksavye Kolomina Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Vaşinqtonda görüşündən sonra ”X” səhifəsində yazıb. ”NATO-Azərbaycan ikitərəfli əməkdaşlığının və sülh danışıqlarının hazırkı vəziyyəti müzakirə edilib”, - deyə o qeyd edib.

Mövzu ilə bağlı “Unikal”a açıqlama verən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, bu görüşün əsas məqsədi cari ilin noyabr ayında ABŞ-də keçiriləcək prezident seçkiləri ilə bağlıdır:

“Seçkiqabağı Bayden administrasiyasının vəziyyəti o qədər də yaxşı deyil. Dövlət Departamenti də çalışır ki, xarici siyasət istiqamətində hansısa vacib irəliləyişlərə nail olsun. Məhz ona görə, biz bu görüşlərin ardıcıl keçirildiyini görürük. Hamı başa düşür ki, yekun sülh sazişinin imzalanması üçün həll edilməli problemlər hələ ki, qalır. Nə sərhəd məsələsi, nə Ermənistanın konstitusiyasında Azərbaycana qarşı olan maddələr aradan götürülüb, nə də kommunikasiyalar və bu kimi digər problemlər həll edilib.

Sadaladığımız və sadalamadığımız digər mövzularla bağlı fikirləşəndə aydın olur ki, bu proseslərin yekunlaşması üçün aylar, bəlkə də, illər lazımdır”, - deyə o qeyd edib.

Sabiq nazirin sözlərinə görə, yekun sülh sazişinə qədər hansısa prinsipləri əhatə edən ilkin sənədin imzalanacağı ehtimal edilir:”Ermənistan hər zaman olduğu kimi, onun xeyrinə olan məsələlərin qısa sənədə daxil edilməsinə və öz mövqeyini gücləndirməyə çalışır. Bu, sərhədlərlə bağlı olan məsələdir. Biz bilirik ki, ermənilərin siyasi rəhbərliyi müxtəlif dövrlərdə Ermənistana aid müxtəlif sərhədləri təbliğ edib. İndi isə, onlar SSRİ dağılan zaman olan sərhədləri istəyirlər. Burada da maraqlı bir məqam var. Belə ki, ermənilər özləri 1989-cu ildə həmin sərhədlərdən imtina ediblər. Azərbaycan isə bununla razı deyil. Ermənilərin ikinci məqsədi isə odur ki, heç bir sənəd qəbul edilməsin və buna görə Azərbaycanı ittiham etsinlər. Açıq desək, ermənilərin taktikası bundan ibarətdir.

Azərbaycan isə həmişə bunun tərəfdarıdır ki, əgər ABŞ sülh sazişinin imzalanmasını bu qədər çox istəyirsə, bizim 2021-ci ildə irəli sürdüyümüz 5 prinsipi əhatə edən qısa bir sənəd imzalansın. Digər tərəfdən, həmişə olduğu kimi, bu məsələdə həm Rusiyanın, həm də ABŞ-nin öz maraqları var. Rusiya istəmir ki, Bayden administrasiyası hansısa uğura nail olsun. Ona görə də, mane olmağa çalışır ki, heç bir sənəd imzalanmasın. ABŞ isə istəyir ki, hər hansı sənəd olsun. Yenə də bunun ətrafında oyunlar gedir. Azərbaycanın mövqeyi isə bəllidir. Biz vaxtı ilə irəli sürdüyümüz prinsiplərə əsaslanan sənədi imzalaya bilərik. Burada bizim üçün hər hansı problem yoxdur”.

Politoloq Elxan Şahinoğlu bizimlə söhbətində deyib ki, bu görüş xüsusi nəticəyə hesablanmamışdı, sadəcə, Blinken Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin NATO-nun Vaşinqton toplantısına qatılmasından istifadə edərək növbəti dəfə moderatorluq funksiyasını yerinə yetirib: “Görüşdən sonra verilən açıqlamada tərəflər Azərbaycan və Ermənistanın sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında tarixi sazişin yekunlaşdırılması istiqamətində əldə olunmuş irəliləyişi qeyd edib və bu istiqamətdə işi davam etdirməyə razılaşıblar. Bu ümumi sözlərdir, nə qədər ki, Ermənistan Konstitusiyasında dəyişiklik həyata keçirilməyib, sülh sazişinin imzalanması mümkün deyil. Buna baxmayaraq, tərəflər ümumi niyyətləri ifadə edən çərçivə sazişini ilin sonuna qədər imzalaya bilər. Vaşinqtonun çalışdığı da məhz budur”.

Siyasi şərhçi Aqşin Kərimov isə deyib ki, Azərbaycanla Ermənistan arasında yekun sülh üçün yaxınlaşma tendensiyası artdıqca problemli məsələlərin miqyası üzrə də yeni narrativlər ortaya çıxır. Onun sözlərinə görə, Ermənistan sülh gündəliyini Rusiya və Qərb arasındakı rəqabət üçün səhnə etməyə çalışır: “Azərbaycan isə bu təhlükəli tendensiyanı zərərsizləşdirməkdən ötrü Ermənistan qarşısında yeni şərtlər irəli sürür. Ermənistanda Konstitusiyanın dəyişdirilməsi tələbinin Azərbaycan tərəfindən qaldırılması İrəvanın regiondakı reallıqları dəyişdirmək planlarına qarşı kontur addımlardır. Ermənistan güc qarşıdurmasının ürəyi olaraq qalmaq istədikcə, Azərbaycanın da belə preventiv və daha iddialı tezislər irəli sürəcəyi gözləniləndir. Bu, Azərbaycanın strateji cəhətdən müdafiə immunitetidir və perspektiv üçün sülh və təhlükəsizlik modelini əhatə edən yanaşmasının ifadəsidir. Bunlara baxmayaraq Azərbaycanla Ermənistan sülh sazişi üçün lazım olan təməl daşlarını qoya bilib. Müsbət impulslar və qarşılıqlı razılaşmalar əsasında verilən qərarlar, o cümlədən sərhədlərin delimitasiyası sülhə olan ümidləri artırır.

Azərbaycan təkcə Ermənistanla sülh gündəliyi deyil, həm də Ermənistan-Türkiyə arasında normallaşmanın və regionda mühüm geosiyasi dəyişikliyin açarı üzərində işləyir. Amma Ermənistanın Rusiyadan siyasi və hərbi cəhətdən uzaqlaşmaq, əvəzində tamamilə Qərbin ağuşuna sığınmaq barədə düşünməsi regiona müdaxilə təhlükələrini də artırır. Azərbaycan bu müdaxilələrin qarşısında dayanaraq sülh gündəliyini irəlilətməyi hədəfləyir, ancaq qırmızı cizgilərin keçiləcəyi təqdirdə güc tətbiqi ssenarisini da diqqətdə saxlayacaq”.

***Murad İbrahimli***



## İranın yeni lideri daha çox sülh tərəfdarıdır: Əgər Pezeşkianın özünə qalsa...

***İran İslam Respublikası Fələstin xalqına bütün istəkləri reallaşana, hüquqları bərpa olunana, Qüds azad edilənədək hərtərəfli dəstəyini davam etdirəcək.***

İranın yeni lideri Məsud Pezeşkian müqavimət göstərən Fələstin xalqına qələbə və ilahi zəfərin nəsib olacağına ümidlidir. Bəs Pezeşkianın bu addımları həqiqətən də sülhə təkan verə bilərmi?

Politoloq Ramiz Alıyev Bakıvaxtı.az-a açıqlamasında bildirib ki, İran dövləti hər zaman Fələstinə öz yaxınlığı ilə tanınıb: “Onların hüquqlarını müdafiə etdiyini bildirib. Fələstində olan silahlı qüvvələr də İran dövlətinin xüsusi xidmət orqanları ilə yaxınlığı ilə tanınır və hər kəs bunu yaxşı bilir, onlar da bunu gizlətmirlər, açıq-aşkar bildirirlər. Həm Fələstin tərəfdən, həm də İran tərəfdən bütün dövrlərdə belə olub. HƏMAS-la İsrail arasında gedən müharibədə də İran dövləti Fələstinin tərəfində olduğunu və dəstəklədiyini bildirmişdi”.

Politoloq qeyd edib ki, İranda prezident seçkilərində qalib gələn islahatçı Məsud Pezeşkianın bu istiqamətdə hansısa addımlar atacağını öncədən təxmin etmək mümkündür: “Hesab edirəm ki, Pezeşkian Qərblə danışıqlarda hər zaman öndə olan və danışıqlar prosesini aparan səlahiyyətli şəxs kimi sülhün tərəfdarı olacağını bildirəcək. İsraillə Fələstin arasında olan müharibənin dayandırılması və münasibətlərin bərpa olunması yolunda addımlar atacaq, öz tövsiyələrini də verəcək”.

Müsahibimizə görə, Pezeşkian elə bir siyasətçidir ki, o, müharibədən daha çox sülhün tərəfdarı olduğunu göstərəcək: “Onun apardığı bütün siyasi proseslərə, eyni zamanda çıxışlarına baxanda gələcəkdə də bu siyasəti davam etdirəcəyini görürük. Nəinki İsrail HƏMAS arasında gedən müharibə, eyni zamanda Rusiya, Ukrayna və digər bölgələrdə baş verən müharibələrdə və münaqişələrdə yalnız sülhün tərəfdarı olduğunu göstərəcək”.

R.Alıyev hesab edir ki, İranın yaxın dörd il ərzində belə bir addım atacağının şahidi olacağıq: “İran dövlətində, ölkənin ən səlahiyyətli şəxsi dini ali liderdir və hesab edirəm ki, İranın dini ali liderinin qərarları həmişə daha öndə olur. Ona görə də andiçmə mərasimindən sonra atacağı ilk addımlardan İranın yeni prezidentinin islahatçı xətlə gedəcəyini, yoxsa dini liderin tapşırıq və tövsiyələrinə uyğun olacağını hiss edəcəyik. Əgər Məsud Pezeşkiana qalsa, onun öz fikri olsa, o, islahatçıdır və barışın tərəfdarı olduğunu nümayiş etdirəcək”.

# İlham Əliyev Monqolustan Prezidentini təbrik edib

***Azərbaycan Prezidenti İlham Əliyev Monqolustanın Prezidenti Uxnaaqiyn Xurelsuxa təbrik məktubu göndərib.***



"Unikal" xəbər verir ki, təbrik məktubunda deyilir: "Monqolustanın milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. İnanıram ki, Azərbaycan ilə Monqolustan arasında münasibətlərin inkişafı, əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına daim əmin-amanlıq və rifah diləyirəm".

# "Fransa Cənubi Qafqazı qarşıdurma meydanına çevirməyə çalışır" - Sahibə Qafarova

***Azərbaycan nəinki beynəlxalq hüququn norma və prinsiplərinin icrasını təkbaşına təmin edib, həm də xalqın 30 ilə yaxın axtardığı haqq-ədaləti də bərpa edib.***

"Unikal"ın məlumatına görə, bunu VI çağırış Milli Məclisin sədri Sahibə Qafarova bu gün BRICS ölkələrinin X Parlament Forumunun plenar sessiyasında çıxışı zamanı səsləndirib.

O qeyd edib ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlayıb, keçmiş məcburi köçkünlər artıq öz dədə-baba yurdlarına geri qayıdırlar.

VI çağırış Milli Məclisin spikeri məlumat verib ki, hazırda Azərbaycan və Ermənistan Cənubi Qafqaz regionuna uzunmüddətli sülh və sabitlik gətirəcək normallaşma prosesini davam etdirirlər.

Spiker təəssüflə bildirib ki, həqiqi sülhün mümkünlüyü artdıqca, selektiv yanaşmaların, ikili standartların, müdaxilə cəhdlərinin yenidən gündəmə gəlməsinin şahidi olur.

Sahibə Qafarova qeyd edib ki, regionda bu yanaşma Fransa tərəfindən aşkar şəkildə tətbiq olunur. O vurğulayıb ki, bu ölkə müxtəlif bəhanələrlə regional dinamikaya müdaxilə etməyə, Cənubi Qafqazı qarşıdurma və özünün biabırçı neokolonial təcrübələr meydanına çevirməyə çalışır. Lakin Azərbaycanın nümayiş etdirdiyi sərt və qəti mövqe hər hansı belə cəhdin qarşısını qətiyyətlə alır.

VI çağırış Milli Məclisin spikeri vurğulayıb ki, parlament təşkilatları Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının timsalında müəyyən qrupların maraqlarının oyun meydanına, təzyiq və ikili standartlar alətinə çevrilməməlidirlər.

Sahibə Qafarova bildirib ki, beynəlxalq sistemin səmərəliliyinin təmin edilməsi qarşılıqlı




faydaya əsaslanan ədaləti münasibətlərin qurulmasını, bir-birinə hörmət edilməsini və həqiqi çoxtərəfliliyin gücləndirilməsini tələb edir: "Azərbaycan öz xarici siyasətində bu prinsipləri rəhbər tutaraq, həm ikitərəfli əlaqələrində, həm də çoxtərəfli formatlarda dialoq, əməkdaşlıq və həmrəyliyi təşviq edir. Bu prinsiplər həm də BRICS üçün fəaliyyət prioritetləridir. Azərbaycan artıq BRICS-ə qoşulmaq arzusunu ifadə edib".

# "Seçki ilə əlaqədar heç bir xüsusi hazırlıq işi aparılmır" - Elşad Hacıyev

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxçıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

***Asayişin mühafizəsi digər hüquq mühafizə orqanları ilə birgə cari ilin sentyabr ayının 1-nə nəzərdə tutulan Milli Məclisə növbədənkənar seçkilər ərəfəsində və dövründə etibarlı təmin ediləcəkdir.***

Bu barədə "Unikal"ın sorğusuna cavab olaraq Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev bildirib ki, Daxili İşlər Nazirliyi tərəfindən cinayətlərin qarşısının alınması, açılması, hüquq qaydasının qorunması, hər bir şəxsin hüquq və azadlığının müdafiəsi sahəsində qanunla müəyyən edilmiş vəzifələrin icrası davam etdirilir. Vətəndaşların seçkidə öz iradəsini azad və sərbəst ifadə etməsi üçün yüksək təhlükəsizlik şəraiti yaradılacaqdır.

E.Hacıyev vurğulayıb ki, seçki ilə əlaqədar heç bir xüsusi hazırlıq işi aparılmır, eyni zamanda, səlahiyyətdən kənar məsələlərə polisin müdaxiləsi birmənalı istisnadır: "Şəxsi heyət yalnız Seçki Məcəlləsindən irəli gələn aidiyyəti müddəaların tələblərinin həyata keçirilməsinə, vətəndaşların şəxsiyyəti təsdiq edən sənədlərlə vaxtında təmin edilməsi və yaşayış yeri üzrə qeydiyyata alınması vəzifələrinin yerinə yetirilməsinə səfərbər olunmuşdur".

# 32 il əvvəl şəhidlik zirvəsinə ucalan döyüşçülər Xocalıda dəfn edilib

***Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri dəqiqləşdirilmiş daha beş şəhidin cəsədlərinin qalıqları Xocalı şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.***



"Unikal" xəbər verir ki, Xocalı faciəsi zamanı itkin düşmüş Məmişov Şahin Talış oğlu, Paşayev Əlləddin Bəhlul oğlu, Qarayev Usubəli Süleyman oğlu, Şahmuradov Nemət Musa oğlu və Usubov Zakir Kamran oğlunun nəşinin qalıqları şəhid olduqları doğma yurdlarında torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidlərin yaxınları, dövlət qurumlarının rəsmiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidlərimizin ruhuna dualar oxunub, məzarları üzərinə tər güllər düzülüb, əklil qoyulub.

# MEDİA və Dövlət Xidməti açıqlama yaydı

***"Bir sıra saxta sosial şəbəkə hesablarda edilən paylaşımlar vasitəsi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin adından guya vətəndaşların ölkənin bank sektoruna investisiya qoymağa təşviq edən videomüraciət yayılıb. Bildiririk ki, qeyd olunan videomüraciət "deep-fake" texnologiyası ilə hazırlanıb və heç bir reallığı əks etdirməyən saxta məlumatdır".***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi birgə məlumat yayıb.

Qurumlar cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa çağırıblar:

"Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı və sosial media hesabları mötəbər informasiya mənbəyi olaraq daim aktivdir və dövlət başçısının fəaliyyətini operativ formada işıqlandırmaqdadır.

Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumatəsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik".

Bildirilib ki, "Deep-fake" texnologiyalarından istifadə edərək hazırlanmış qeyd olunan saxta və yalan videomüraciət, habelə onun mənbəyi barədə müvafiq tədbirlərin görülməsi təmin edilməkdədir.

# Bakı ilə İslamabad qardaşlaşmış şəhər oldular



***Azərbaycan və Pakistanın paytaxtları Bakı və İslamabad qardaşlaşmış şəhər olublar.***

"Unikal"ın məlumatına görə, bu barədə sənəd Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 11-də Pakistana dövlət səfəri çərçivəsində imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə "Bakı şəhəri (Azərbaycan Respublikası) ilə İslamabad şəhəri (Pakistan İslam Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında Anlaşma Memorandumu"nu İslamabad Paytaxt Korporasiyasının rəhbəri Muhammad Ali Randhava və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov mübadilə etdilər.

**ELAN**

**"Göyəzən" Məhdud Məsuliyyətli CƏMİYYƏT (VÖEN 4200101291) təşkilati hüquqi formasını dəyişərək ictimai birlik adlandırılsın.**

***

**"Göyzən Qazax Futbol Klubu" Məhdud Məsuliyyətli Cəmiyyət (VÖEN 4202201471) təşkilati hüquqi formasını dəyişərək ictimai birlik adlandırılsın.**

23_27 IYUl-QARA.qxd 7/11/2024 11:16 PM Page 6



# Azərbaycanla Pakistan arasında mühüm sənədlər imzalandı

***İyulun 11-də İslamabadda Azərbaycan ilə Pakistan arasında imzalanmış sənədlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə mübadiləsi mərasimi olub.***

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Pakistan İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında konsulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Pakistanın Baş nazirinin müavini, xarici işlər naziri Mohammad İşaq Dar və Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında tranzit ticarət haqqında Saziş"i Pakistanın kommersiya naziri Cam Kamal Xan və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında preferensial ticarət Sazişi"ni Pakistanın kommersiya naziri Cam Kamal Xan və Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mübadilə etdilər.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Kommunikasiyalar və Özəlləşdirmə Nazirliyi arasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Pakistanın kommunikasiyalar və özəlləşdirmə naziri Abdul Alim Xan və Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu"nu Pakistanın hüquq və ədliyyə naziri Azam Nazir Tarar və Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Pakistanın energetika naziri Musadik Masud Malik və Azərbaycanın energetika naziri Pərviz Şahbazov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli İrs və Mədəniyyət İdarəsi arasında 2024-2029-cu illər üzrə mədəni mübadilə Proqramı"nı Pakistanın milli irs və mədəniyyət naziri Ataullah Tarar və Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının İnformasiya Texnologiyaları və Telekommunikasiya Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Pakistanın informasiya texnologiyaları və telekommunikasiya naziri xanım Şaza Fatima Xavaca və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Pakistan İslam Respublikasının "Pakistan Televiziya Korporasiyası" MMC arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"nu "Pakistan Televiziya Korporasiyası" MMC-nin sədri xanım Şahera Şahid və Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında elmi və texnoloji əməkdaşlıq haqqında Saziş"i Pakistanın Elm və Texnologiya Nazirliyinin katibi Ali Tahir və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.



"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Pakistanın Əyalətlərarası Əlaqələndirmə Nazirliyinin katibi Nadim İrşad Kayani və Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Pakistanın Aviasiya Nazirliyinin katibi Saif Ancum və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Bakı şəhəri (Azərbaycan Respublikası) ilə İslamabad şəhəri (Pakistan İslam Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında Anlaşma Memorandumu"nu İslamabad Paytaxt Korporasiyasının rəhbəri Muhammad Ali Randhava və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Pakistan İslam Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı İdarəsi arasında Anlaşma Memorandumu"nu Pakistanın Kiçik və Orta Sahibkarlığın İnkişafı İdarəsinin baş icraçı direktoru Sokrat Aman Rana və Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mübadilə etdilər.

"Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Pakistan Ədəbiyyat Akademiyası arasında Anlaşma Memorandumu"nu Pakistanın Ədəbiyyat Akademiyasının sədri xanım Naciba Arif və Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov mübadilə etdilər.

# İlham Əliyevin şərəfinə rəsmi nahar verildi



***İyulun 11-də İslamabadda Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezidentin mətbuat xidməti məlumat yayıb.

# Bakıda COP29 çərçivəsində Parlament iclası keçiriləcək

***İyulun 11-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində BRICS ölkələrinin X Parlament Forumunun plenar iclası keçirilib. Milli Məclisin sədri Sahibə Qafarova iclasda iştirak edib.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a bildirilib ki, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Forumda çıxış edərək, parlament platformasında əməkdaşlığın əhəmiyyəti, həmçinin BRICS-ə üzv ölkələr arasında əməkdaşlıq məsələləri barədə fikirlərini bildirib.

Milli Məclisin sədri Sahibə Qafarova iclasda çıxış edərək, Parlament Forumunun dialoq və əməkdaşlıq üçün mühüm platforma olduğunu söyləyib.

O, tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlayıb. Keçmiş məcburi köçkünlər artıq öz dədə-baba yurdlarına geri qayıdırlar. Hazırda Azərbaycan və Ermənistan Cənubi Qafqaz regionuna uzunmüddətli sülh və sabitlik gətirəcək normallaşma prosesini davam etdirirlər.

"Təəssüflər olsun ki, həqiqi sülhün mümkünlüyü artdıqca, biz selektiv yanaşmaların, ikili standartların, müdaxilə cəhdlərinin yenidən gündəmə gəlməsinin şahidi oluruq", - deyən S.Qafarova qeyd edib ki, bizim regionumuzda bu yanaşma Fransa tərəfindən aşkar şəkildə tətbiq olunur. O vurğulayıb ki, bu ölkə müxtəlif bəhanələrlə regional dinamikaya müdaxilə etməyə, Cənubi Qafqazı qarşıdurma və özünün biabırçı neokolonial təcrübələr meydanına çevirməyə çalışır. Lakin Azərbaycanın nümayiş etdirdiyi sərt və qəti mövqe hər hansı belə cəhdin qarşısını qətiyyətlə qalır.

Milli Məclisin sədri deyib ki, beynəlxalq sistemin səmərəliliyinin təmin edilməsi qarşılıqlı faydaya əsaslanan ədalətli münasibətlərin qurulmasını, bir-birinə hörmət edilməsini və həqiqi çoxtərəfliliyin gücləndirilməsini tələb edir. Azərbaycan öz xarici siyasətində bu prinsipləri rəhbər tutaraq, həm ikitərəfli əlaqələrində, həm də çoxtərəfli formatlarda dialoq, əməkdaşlıq və həmrəyliyi təşviq edir. Onun sözlərinə görə, bu prinsiplər həm də BRICS üçün fəaliyyət prioritetləridir. Azərbaycan artıq BRICS-ə qoşulmaq arzusunu ifadə edib. Diqqətə çatdırılıb ki, bu kontekstdə əməkdaşlığın gücləndirilməsi ortaq məqsədlərimizə xidmət edəcək.

Sahibə Qafarova BRICS ölkələrinin X Parlament Forumunun plenar sessiyasında çıxışı zamanı bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 haqqında məlumat verib. Spiker deyib ki, ölkəmizin bu mötəbər beynəlxalq tədbirə ev sahibliyi etməsi Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə təkcə milli səviyyədə deyil, həm də regional və qlobal miqyasda göstərdiyi səylərin tanınmasının göstəricisidir.

Parlamentləri iqlim böhranının həlli yollarının tapılmasında fəal olmağa səsləyən Milli Məclisin sədri iştirakçıları Azərbaycan Respublikasının Milli Məclisinin Parlamentlərarası İttifaqla birlikdə COP29 çərçivəsində keçiriləcək Parlament iclası barədə məlumatlandırıb. O vurğulayıb ki, bu görüş parlamentarilər üçün fikir mübadiləsi aparmaq və iqlim dəyişikliyi ilə mübarizədə həll yollarının tapılması üçün əlverişli fürsət olacaq, həmçinin bu sahədə çoxtərəfli fəaliyyətin həyata keçirilməsinə parlament töhfəsini verəcək. Sahibə Qafarova tədbir iştirakçılarını Parlament iclasına dəvət edib.

Qeyd edək ki, tədbiri Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko açıb. O, tədbir iştirakçılarını salamlayaraq, konfransın əhəmiyyəti və müzakirə olunan mövzuların aktuallığı barədə fikirlərini bildirib.

Plenar sessiyada çıxış edən Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson Azərbaycanla rəhbərlik etdiyi təşkilat arasında əməkdaşlıqdan məmnunluğunu bildirib. O, ölkəmizin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinə uğurlu sədrliyini təqdir edib.

Tədbirdə, həmçinin təşkilata üzv ölkələrin parlament sədrləri də çıxış ediblər.

# Sərhəddə Azərbaycana veriləcək yola beton sədd çəkildi



***Kirants kəndindən keçən dövlətlərarası yola beton sədd çəkilib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb. Qeyd olunub ki, divarın qarşı tərəfində qalan yol bu ayın sonuna qədər Azərbaycana təhvil veriləcək. Dünəndən etibarən İcevandan Ermənistan-Gürcüstan sərhədinə gedən avtomobillərin hərəkəti dolama yoldan, qonşu Açarkut kəndindən keçir. Paralel olaraq Kirantsdan keçən yeni yol da çəkilir.

*Ağarza Elçinoğlu*

# "Seçkiyə qatılmağımızı hakimiyyətlə iş birliyi..." - Müsavat başqanının müavini

***"Əgər qərarını elan edirsənsə, digər qərarlara da saygı ilə yanaşmırsansa, bu peşəkarlıqdan və səmimiyyətdən uzaqdır".***

Bunu Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı feysbuk hesabında yazıb. O qeyd edib ki, hər bir partiya öz siyasətini özü müəyyən edir: "Müsavat Partiyası seçkidə iştirak etməyənlərin (iştirak etməyənlərin bunu boykot adlandırması siyasi və hüquqi mənada savadlı görünmür) qərarlarına hörmətlə yanaşdığını bildirib. Onların da səbəblərini tutarlı hesab etməklə yanaşı seçkidə iştiraka üstünlük verdiyini göstərib. Siyasi etika da bunu tələb edir ki, hər bir partiya öz siyasətini özü müəyyən edir. İtirsədə, qazansa da xalq və üzvləri qarşısında məsuliyyət özünündür. Kim düz edir, kim səhv ediri seçici və cəmiyyət qiymətləndirəcək. Biri birini təftiş etmək nə cəmiyyətə nə də kimsəyə fayda verməz".

S.Soltanlı bildirib ki, seçkiyə qatılmaq hakimiyyətlə iş birliyi kimi qiymətləndirmək vicdanlı davranış deyil: "Tam əksinə, hansı qərar verdiyini xalqla müzakirə etmək, cəmiyyətin maraqları ilə partiya maraqlarını uzlaşdırmağa çalışmaq o qədər normal işdir ki, burada heç bir əlavə müdafiə nitqinə ehtiyac yoxdur. Sadəcə ortada şəffaf olan qərarımıza çamur atanlar məcbur edir ki, özləri haqqında da haqlı sualları eşitsinlər. Keçmişdə olanları qabartmağa ehtiyac yoxdur. Aylardır davam edən məhkəmə prosesini latent aparmaq, bu proses haqda cəmiyyəti zamanında ümumiyyətlə məlumatlandırmamaq, məhkəmənin qərarından sonra bu haqda xəbəri paylaşmaq hansı niyyətlə edilib? Desəniz ki, bu bizim qərarımızdır, biz əlbəttə hörmətlə yanaşarıq.

Bununla bərabər, özünüz kimi qərəzli olanlar çıxıb deməz ki, avtomobilinizin arxasınca 2 km eyni maşın gələndə belə bunu özünüzə qarşı təzyiq kimi paylaşdığınız halda nədən partiyanızın həyatında ən mühüm prosesi son ana qədər hakimiyyətlə hansısa razılaşmanın olacağına ümid edib ictimaiyyətdən, xalqdan gizlətmisiz? Deyə bilərlərmi? Çox suallar var..."

# Ümumrespublika Təmizlik Marafonuna start verildi

***"Təmiz ölkəm" devizi altında keçirilən Ümumrespublika Təmizlik Marafonu bu gün Xəzər dənizinin Sumqayıt sahilində, İsmayıllı rayonu Talıstan, Şəki rayonu Kiş, Qusar rayonu Qusar, Xızı rayonu Giləzi, Cəlilabad rayonu Göytəpə meşəbəyliklərində, Qubadlı rayonu Tinli kəndi, Tovuz rayonu Muncuxlu kəndi ərazisində, Lənkəran rayonu Xanbulan gölü ətrafında, Türyançay çayının Ağdaş rayonu ərazisindən keçən hissəsində və digər ərazilərdə keçirilib.***

"Unikal" xəbər verir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, yerli kommunal müəssisələr kombinatlarının əməkdaşlarının, Sumqayıt Futbol Klubunun, 2 saylı Bərpa Tikinti İdarəsinin, Ağdaş Dövlət Aqrar İnkişaf Mərkəzinin, yerli sakinlərin və ekokönüllülərin iştirakı ilə keçirilən aksiyalar zamanı 3 tondan artıq tullantı yığılaraq ərazilərdən daşınıb.

Təmizlik aksiyalarının keçirilməsində əsas məqsəd hər kəsi ətrafa tullantı atmamağa sövq etmək, ərazilərin təmizliyinə hər bir kəsin məsul olması öhdəliyini çatdırmaq, onları alışılmış vərdişlərdən uzaqlaşdırmaq və bu işlərə daha geniş kütləni cəlb etməklə təbiət ərazilərinin təmizliyinə nail olmaqdır.

Qeyd edək ki, Ümumrespublika Təmizlik Marafonu bu gündən etibarən hər həftənin 4 və 6-cı günləri bütün ölkə ərazisinin çay vadilərini, meşə ərazilərini və dəniz sahillərini əhatə edəcək.

# "Yeni Prezident İranı xeyli qabağa aparacaq"

## Qabil Hüseynli: "Əvvəlki dövrdə Azərbaycana qarşı olan təhdidlər İranın yeni Prezidenti Məsud Pezeşkianın dövründə olmayacaq"

***Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, İran Prezidenti Məsud Pezeşkianın Qərblə münasibətlərdə hansı dəyişikliklər edə biləcəyindən, İran-Azərbaycan əlaqələrində gözlənilən yeniliklərdən, Zəngəzur dəhlizinin açılması istiqamətində nə kimi işlərin görüləcəyindən və başqa məsələlərdən danışıb.***



***-Qabil müəllim, İranın yeni Prezidenti Məsud Pezeşkian Qərblə münasibətlərdə hansı dəyişikliklərə nail ola bilər?***

-Seçkilər ərəfəsində Məsud Pezeşkian əhaliyə dedi ki, sanksiyaların götürülməsinə çalışacaq. Düşünürəm ki, İranın yeni Prezidenti Məsud Pezeşkian Qərblə münasibətləri qaydaya sala bilməsə, ölkəsinə qarşı tətbiq edilən ağır sanksiyaların götürülməsinə nail olmasa, bu seçimin əhəmiyyəti olmayacaq. Amma Məsud Pezeşkianı iradəli, təmiz, verdiyi sözə əməl etməyi bacaran adam kimi tanıyıram. Sadəcə onun qarşısında əngəl olan mühafizəkar SEPAH qruplaşmaları olacaq. Onların müqavimətini qıra bilsə, İranı xeyli qabağa aparacaq. Yaxın 2-3 ildə İranda dəyişikliklər başlaya, sanksiyalar götürülə bilər. Dörd ildən sonra isə sanksiyalar tamamilə götürülə bilər.

***-Məlum olduğu kimi, iyulun 9-da Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib. Dövlət başçısı Məsud Pezeşkianı İran İslam Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Telefon söhbəti əsnasında Azərbaycan və İran prezidentləri qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər. Necə düşünürsüz, bundan sonra ölkəmizə qarşı münasibətdə hansı yeniliklər olacaq?***

-Zənnimcə, əvvəlki dövrdə Azərbaycana qarşı olan təhdidlər İranın yeni Prezidenti Məsud Pezeşkianın dövründə olmayacaq. Azərbaycanla ikitərəfli münasibətlərin inkişafına qayğı göstəriləcək. Çalışacaqlar ki, münasibətlər normal səviyyədə olsun. Eyni zamanda, Azərbaycanla heç zaman olmayan mədəni əlaqələrin inkişafının bünövrəsi qoyula bilər. Bu dövrdə məktəb islahatına nail ola bilsə, məktəb kollektivləri bir-birinə qarşılıqlı səfər edə bilər. Dərin arzularla bunu deyirəm. Bir gün Güney Azərbaycan məktəblərində ana dilində də tədrisin olacağını gözləyirəm. Düşünürəm ki, İranın yeni Prezidenti bunu etməyə çalışacaq. Bu, konstitusiyada da var. Kürd, erməni dilində məktəblər var. Niyə Azərbaycan dilində də məktəb olmasın?

***-Qabil müəllim, Zəngəzur dəhlizinin açılması ilə bağlı hansı addımların atılacağını düşünürsüz?***

-İndi Zəngəzur dəhlizi ilə ABŞ, Çin və başqa ölkələr də maraqlanır. Hansısa SEPAH generalı bizi təhdid edib Zəngəzur dəhlizi bizim qırmızı xəttimizdir deməyəcək. Bu dəqiqə o məsələnin ətrafında o qədər beynəlxalq güclər cəmləşib ki, onların da danışmağa cəsarəti yoxdur. Düşünürəm ki, Zəngəzur dəhlizi məsələsi reallaşacaq.

***-Bu günlərdə İran Xarici İşlər Nazirliyinin Avrasiya Baş İdarəsinin rəisi və nazir köməkçisi Müctəba Dəmirçilu İran mediasına açıqlamasında bildirib ki, Azərbaycanın İrandakı səfirliyi yaxın günlərdə - 15-20 gün ərzində yenidən açılacaq. Siz necə düşünürsüz, Azərbaycanın İrandakı səfirliyi tezliklə yenidən fəaliyyətə başlayacaq?***

-Bəli, yenidən bərpa olunacaq. İyulun 30-da İranın yeni prezidenti Məsud Pezeşkianın andiçmə mərasimi keçiriləcək. Ölkəmizdən də bu tədbirdə iştirak olacaq. Güman edirəm ki, bu ab-havada Azərbaycan səfirliyi açıla bilər. Ümumilikdə, dövlətlərarası münasibətlərdə yenilik gözləyirəm. Qarşılıqlı əlaqələrin, ticarətin genişlənəcəyini düşünürəm. Eyni zamanda qarşılıqlı olaraq mədəni heyətlərin göndərilməsi ilə yanaşı sərhəddə müxtəlif mədəni tədbirlər keçirilə bilər. Mədəni tədbirlərin tərkib hissəsi kimi ali və orta məktəblərin açılması gündəmdə durur. İqtisadi sahədə isə çox işlər olacaq.

*Anar Kəlbiyev*

# Bakıda 200 avtobus istifadəyə veriləcək

***"Bu ilin əvvəlində paytaxtda 200 yeni avtobus xəttə buraxılıb və yaxın vaxtlarda daha 200 avtobus istifadəyə veriləcək".***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) sədri Anar Rzayev deyib.

O bildirib ki, COP29 tədbirinə qədər Bakıya 160 yeni elektrikli avtobus gətiriləcək istifadəyə veriləcək. "Ümumilikdə, Bakıda 360 avtobusun istifadəyə verilməsi nəzərdə tutulub. Bakının avtobus nəqliyyatı ilə bağlı AYNA yeni şəbəkə hazırlayıb. Bu şəbəkə şəhərin rəqəmsal "əkiz"ində simulyasiya edilib. Hazırda şəbəkənin tətbiqinə başlanılıb".



AYNA-nın sədri qeyd edib ki, şəbəkə üzrə ilk beş marşrut artıq istifadəyə verilib. Bunlar şəhərin uzaq məntəqələrini Hövsan və Mərdəkanı mərkəzlə əlaqələndirən marşrutlardır.

23_27 IYUl-QARA.qxd 7/11/2024 11:16 PM Page 8



# Əbülfəs Qarayevin şiddətli töhmət verdiyi direktora Adil Kərimlidən həlledici zərbə

## Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən əməliyyatın sensasion pərdəarxası "Unikal"da!



***Yola salmaq üzrə olduğumuz həftə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında əməliyyat keçirilib.***

Bu barədə Mədəniyyət Nazirliyinin məlumatında bildirilib.Qeyd edilib ki, aparılmış istintaq tədbirləri nəticəsində etibar edilmiş külli miqdarda özgə əmlakını talama, vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi, külli miqdarda rüşvət alma və vəzifəli şəxs tərəfindən tamah və sair niyyətlə rəsmi sənədlərə bilə-bilə yalan məlumatların daxil edilməsi kimi cinayətlərin əlamətlərini əks etdirən kifayət qədər dəlillərin olması nəzərə alınaraq fakt üzrə Azərbaycan Respublikası CM-in 179.3.2, 308.1, 311.3.3 və 313-cü maddələri ilə cinayət işi başlanılıb.

Cinayət işinin istintaqı zamanı Azərbaycan Dövlət Akademik Filarmoniyasının əməkdaşı Rəşad Məmmədov barəsində məhkəmənin qərarı ilə 5 iyul tarixində həbs qətimkan tədbiri seçilib. İş üzrə istintaq tədbirləri davam etdirilir.

Azərbaycan Dövlət Akademik Filarmoniyasında əməliyyat aparılması, bu mədəniyyət müəssisəsində ciddi korrupsiya və rüşvət hallarının aşkarlanması cəmiyyətdə təəccüblə qarşılanıb. Lakin "Unikal" qəzetinin araşdırması təəccüb üçün heç bir əsas olmadığını ortaya qoyur.

Öncə onu deyək ki, filarmoniyada bu konsert təşkilatında 7 kollektiv fəaliyyət göstərir. Bunlar Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Azərbaycan Dövlət Fortepiano Triosu, Azərbaycan Dövlət Simli Kvarteti, F.Əmirov adına əməkdar kollektiv, Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblı və bu kol- lektivin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Xalq Çalğı Alətləri orkestridir. 2017-ci ildə Nazirlər Kabinetinin qərarına əsasən Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasına "Akademik" statusu verilib.

1996-2004-cü illərdə Filarmoniya binasında əsaslı bərpa və yenidənqurma işləri aparılıb. 27 yanvar 2004-cü ildə Filarmoniya binasının təntənəli açılış mərasimi baş tutub. Açılışda ölkə başçısı da iştirak edib.Filarmoniyaya uzun illərdir məşhur pianoçu, Xalq artisti Murad Adıgözəlzadə rəhbərlik edir. Onun sözügedən quruma nə zaman direktor təyin olunması ilə bağlı internet resurslarında heç bir məlumat yoxdur. Hətta M.Adıgözəlzadənin Vikipediya məlumatlarında da bu tarix yazılmayıb. Hələ iki il öncə yerli media yazıb ki, filarmoniya ictimaiyyətlə əlaqələrini kəsmiş kimi görünür. Bu üzdən direktor zaman-zaman mədəniyyət xadimlərinin kəskin qınağına məruz qalıb. Sitat: "Məsələn, əməkdar artist, milli rəqqas Kamil Dadaşov 2012-ci ildə verdiyi müsahibədə M.Adıgözəlzadə haqqında belə fikirlər işlədib: "...Filarmoniyaya Murad Adıgözəlov kimi passiv direktor lazım deyil. Direktor pisi yaxşıdan seçməyi bacarmalıdır. Bir dəfə Murad müəllimin qəbuluna getdim. Cavanlığımı qoyduğum filarmoniyanın qəbul otağında saatlarla gözlədim. Murad Adıgözəlov nə etsə yaxşıdır? O, məni qəbul etmədi..." (Azpolitika.info)

Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin keçirdiyi əməliyyata gəlincə, ilginc bir fakt diqqət çəkir. Belə ki, hələ 2015-ci ilin dekabrın 21-də keçmiş Mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin üç illik hesabat toplantısında Murad Adıgözəlzadənin fəaliyyətini sözün həqiqi mənasında tənqid atəşinə tutub. O, bununla da kifayətlənməyib, belə ki, elə həmin toplantıda sabiq nazir ona şiddətli töhmət elan edib. Qarayev haqqında danışılan çıxışında deyib: "...Dövlət Filarmoniyasının idarəçiliyində çox ciddi nöqsanlar var. Təşəbbüskarlıq yox səviyyəsindədir. Filarmoniyanın işinin günün müasir tələblərinə uyğun qurulması, dünyanın aparıcı filarmoniyaları ilə əlaqələrin yaradılması, ölkəmizin zəngin musiqisinin təbliğ edilməsi üçün fəaliyyəti gücləndirilməli, yeni təşəbbüslər irəli sürülməlidir".

Məruzələr və çıxışlardan sonra Azərbaycan Dövlət Filarmoniyasının 2012-2015-ci illər ərzində fəaliyyəti ilə bağlı kollegiyanın qərarı qəbul edilib. Mədəniyyət müəssisəsinin fəaliyyətini lazımi səviyyədə qura bilmədiyinə, vəzifəsinə məsuliyyətsiz yanaşdığına və nazirliyin qərarlarının icrasını təmin etmədiyinə görə Azərbaycan Dövlət Filarmoniyasının direktoru M.Adıgözəlzadəyə şiddətli töhmət verilib.

Belə görünür, aradan 9 il vaxt keçməsinə baxmayaraq Filarmoniyanın idarəçiliyində müsbətə doğru heç bir ciddi dəyişiklik baş verməyib. Elə buna görə də vaxtilə Ə.Qarayevin sərt tənqid və şiddətli töhmətlə kifayətləndiyi bu mədəniyyət ocağında əməliyyat keçirilməsi qaçılmaza çevrilib. Bununla bağlı hazırkı mədəniyyət naziri Adil Kərimlinin öncədən məlumatlı olduğu, əməliyyata razılıq verdiyi istisna olunmur.

İstisna deyil ki, Murad Adıgözəlzadə yaxın vaxtlarda direktor postundan uzaqlaşdırılacaq. Müxtəlif vaxtlarda aparıcı mediada onun filarmoniyaya rəhbərlikdən çox şəxsi biznesinin idarəçiliyinə və xarici səyahətlərə vaxt ayırdığı barədə iddiaları nəzərə aldıqda məşhur pianoçunun nə vaxtilə aldığı şitdətli töhmət, nə də indi üzləşdiyi antikorrupsiya əməliyyatı sürpriz deyil.

***Sənan Mirzə***

# Baş prokurordan yeni təyinatlar



***Baş prokuror Kamran Əliyev yeni əmrlər imzalayıb.***

Baş prokurorluğun Mətbuat xidmətinə daxil olmuş sorğulara cavab olaraq bildirilir ki, Baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən, Fərid Nağıyev Qaradağ rayon prokuroru vəzifəsinə təyin edilib.

Fərid Nağıyev bu təyinata qədər Bakı şəhər prokurorunun müavini vəzifəsində işləyib.

Baş prokurorun digər əmri ilə Toğrul Muxtarov Bakı şəhər prokurorunun müavini vəzifəsinə təyin olunub.

Toğrul Muxtarov bu təyinata qədər Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini vəzifəsində işləyib.

Bundan başqa, Baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən Füzuli hərbi prokuroru vəzifəsini icra edən Elçin Süleymanov ikinci səlahiyyət müddətinə həmin vəzifəyə təyin edilib.

# Əjdər Ol haqda son qərar verildi



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sabiq aparat rəhbəri, məhkum yazıçı Əjdər Cəbiyevin (Əjdər Ol) kassasiya şikayətinə baxılıb.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Ali Məhkəmədə keçirilən iclasda yekun qərar qəbul edilib.

Vidadi Cəfərovun sədrlik etdiyi məhkəmə heyəti məhkum yazıçıya təyin edilmiş 8 il 3 ay azadlıqdan məhrumetmə cəzasını qanunauyğun hesab edib. Qərara əsasən, şikayət əsassız sayılaraq təmin edilməyib.

Qeyd edək ki, Əjdər Ol sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun cinayət işi üzrə aparılan istintaqla Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs olunub.

O, külli miqdarda mənimsəmədə və rüşvət almaqda təqsirli bilinərək 8 il 6 ay azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi sonradan həbs müddətini 3 ay azaldıb. Səlim Müslümova isə şərti cəza verilib.

***Sail Ağasəlim***

# ABŞ səfiri Aİ missiyası ilə Azərbaycan sərhədinə getdi

***ABŞ-nin Ermənistandakı səfiri Kristina Kuinn Aİ-nin mülki missiyası ilə birlikdə Azərbaycanla sərhəddə vəziyyəti müşahidə edib.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ-nin Ermənistandakı səfirliyinin sosial şəbəkə hesabında qeyd olunub.

"Səfir Kuinn Aİ-nin mülki missiyası ilə sərhəddəki vəziyyəti nəzərdən keçirdi. Birləşmiş Ştatlar davamlı və ləyaqətli sülhün bərqərar edilməsi istiqamətində Ermənistan və Azərbaycanın əldə etdiyi irəliləyişi alqışlayır", - deyə məlumatda bildirilir.

***Ağarza Elçinoğlu***

23_27 IYUI-QARA.qxd 7/11/2024 11:16 PM Page 9



# Əli İnsanovun partiyası seçkidə iştirak qərarı verdi - Siyahı

***Haqq Ədalət Partiyası (HƏP) növbədənkənar parlament seçkilərində iştirakla bağlı qərar qəbul edib.***

"Unikal"ın məlumatına görə, bu barədə partiya sədri Əli İnsanov bildirib. HƏP-in 9 nəfər üzvünün namizədliyinin irəli sürülməsi təsdiqlənib.

Həmin şəxslər aşağıdakılardır:

1. Əliyar Şirməmmədov - İdarə Heyətinin üzvü, HƏP Mərkəzi İcra Aparatının rəhbəri - Bakı şəhəri, Nizami birinci 24 saylı DSK ;
2. Bəhram Mehdiyev - İdarə Heyətinin üzvü - 25 saylı Bakı şəhəri, Nizami ikinci DSK ;
3. Aslan Dəmirov - HƏP Mərkəzi İcra Aparatı rəhbərinin birinci müavini - 87 saylı Qobustan-Şamaxı-İsmayıllı DSK ;
4. Elçin İsmayılov - HƏP Mərkəzi İcra Aparatı rəhbərinin regionların işi üzrə müavini, HƏP Gəncə Regional Mərkəzinin rəhbəri - 40 saylı Gəncə şəhər üçüncü DSK ;
5. Bildirçin Davudova - HƏP Qadınlar Şurasının sədri - 50 saylı Abşeron üçüncü DSK ;
6. Əsgər Məmmədbəyli - HƏP Naxçıvan Şəhər Təşkilatının sədri - 4 saylı Naxçıvan şəhər DSK ;
7. Anar Hüseynov - HƏP Sumqayıt Regional Mərkəzinin rəhbəri - 43 saylı Sumqayıt Şəhər üçüncü DSK ;
8. Azər Salmanov - HƏP Zaqatala Regional Mərkəzinin rəhbəri - 111 saylı Zaqatala Şəhər DSK ;
9. Dilqəm Əliyev - HƏP Şəmkir Rayon Təşkilatının sədri - 102 saylı Şəmkir Şəhər DSK.

# Vəkillər Kollegiyasında yeni təyinatlar

***Vəkillər Kollegiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda Rəyasət Heyəti tərəfindən Kollegiya Aparatının baş hüquqşünas-məsləhətçisi Səttar Məmmədovun Baş katibin müavini (Aparat rəhbərinin müavini) təyin edilməsi barədə qərar qəbul olunub.

Eyni zamanda Aparatda yeni Qəbul şöbəsi yaradılıb. Qərara əsasən, həmin şöbəyə isə Rahilə Ağaquliyeva təyin edilib.

# Ali məktəblərdə rəqabət qanunu fənni tədris olunacaq

***Azərbaycanda qəbul edilməsi nəzərdə tutulan 2024-2026-cı illər üzrə Milli Fəaliyyət planında aparıcı ali təhsil müəssisələrində rəqabət qanunu fənni üzrə tədrisin başlanılması nəzərdə tutulub.***

"Unikal" xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli deyib.

"Bu istiqamətdə Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti və bir sıra başqa ali təhsil müəssisələri ilə aktiv dialoqdayıq", - deyə o bildirib.

# Baş prokuror Qusarda vətəndaşları qəbul edəcək

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il iyulun 19-da, saat 10:00-da Qusar rayon prokurorluğunun inzibati binasında Qusar, Quba və Xaçmaz rayon sakinlərinin qəbulunu keçirəcək.***

Bu barədə "Unikal"a Baş Prokurorluqdan məlumat verilib.

Bildirilib ki, vətəndaşların qəbulla bağlı qeydiyyatı və Qusar rayonuna gəlmələrinin təşkili rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon (şəhər) prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu, contact@prosecutor.gov.az elektron poçt ünvanı, həmçinin prokurorluğun sosial şəbəkələrdəki səhifələri (İnstagram, Facebook və X) vasitəsilə də qəbula yazıla bilərlər.

# Bakının bəzi icra başçılarına bəd xəbər

## Paytaxtın hansı rayonlarının rəhbərləri öz postlarından uzaqlaşdırıla bilər?



***Son bir neçə ayda Azərbaycanın bəzi rayon icra başçıları öz vəsifələrindən uzaqlaşdırılıb. Belə ki, may-iyun aylarında öncə Qusarın icra başçısı Şair Alxasov, ardınca isə Beyləqanın icra başçısı Asif Ağayev vəzifəsindən uzaqlaşdırılıb. Hər iki rayonun sabiq rəhbərinin öz fəaliyyətlərində ciddi nöqsanlara yol verdiyi üçün vəzifələrini itirdiyinə dair mediada iddialar yer alıb.***

"Unikal"ın əldə etdiyi məlumata görə, sentyabrın 1-də keçiriləcək parlament seçkilərindən sonra bir sıra şəhər və rayonların rəhbərliyində də dəyişikliklərin olması gözlənilir. Bu sırada paytaxt Bakının bəzi rayonlarının icra başçıları da var.

"Son vaxtlar bir sıra paytaxt rayonlarının rəhbərləri ilə bağlı şikayətlərin artdığı müşahidə olunur. Qanunsuz tikintilərdən tutmuş yaşıllıqların məhvinədək geniş bir arealı əhatə edən bu şikayətlər ölkə rəhbərliyinin rayon icra başçılarına tövsiyə və tapşırıqlarının ruhuna tamamilə ziddir" - deyə qaynaqlarımız vurğulayırlar.

Yeri gəlmişkən, yola salmaq üzrə olduğumuz həftə maraqlı bir xəbər də yayıldı. Həmin xəbərdə bildirilirdi ki, Bakı Şəhər İcra Hakimiyyətində paytaxt Rayon İcra Hakimiyyətlərinin və şəhərin təsərrüfat xidmətləri rəhbərlərinin iştirakı ilə geniş müşavirə keçirilib. Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətindən verilən məlumata görə müşavirədə bir sıra məsələlər, o cümlədən son vaxtlarda paytaxtda aparılan geniş miqyaslı təmir-abadlıq işləri, sanitar təmizlik məsələləri müzakirə edilib, işlərin sürətləndirilməsi və müəyyən edilən vaxtda keyfiyyətlə başa çatdırılması ilə bağlı müvafiq tapşırıqlar verilib. Sitat: "Rayonlarda görülən təmir işlərinin müzakirəsi zamanı ərazidə yerləşən qeyri-yaşayış obyektlərinin fasadlarının və mövcud hasarların vəziyyətinin qeyri-qənaətbəxş olması ilə əlaqədar Xətai və Yasamal RİH başçılarına ciddi xəbərdarlıq edilib və qısa müddət ərzində bu sahədə dönüş yaradılması ilə bağlı müvafiq tapşırıqlar verilib. Həmçinin şəhərdə aparılan yaşıllaşdırma işlərinin vəziyyəti müzakirə edilib, yaşıllıq zonalarının artırılması, görülən işlərin daha da genişləndirilməsi, əkilən həmişəyaşıl kollar və çiçəklərin sayının artırılması tapşırılıb".

Qeyd edək ki, qəzetimizə daxil olan məlumatda yaxın vaxtlarda vəzifəsindən azad ediləcəyi ehtimal edilən rayon rəhbərləri arasında BŞİH-dəki müşavirədə xəbərdarlıq alan iki icra başçısının da adları var.

Xatırladaq ki, Xətai rayon İcra Hakimiyyətinin başçısı postunu Rafiq Quliyev tutur. O, 1997-ci ildən burada Ümumi şöbədə müfəttiş, 2003-cü ildən müfəttiş-inspektor, 2006-cı ildən 2012-ci ilədək həmin şöbənin müdiri vəzifələrində çalışıb. 21 may 2012-ci ildən 19 dekabr 2013-cü ilədək Başçının müavini, 2013-cü ilin dekabrından 12.11.2019-cu il tarixədək başçının 1-ci müavini vəzifələrini tutub. 2019-cu il noyabrın 12-də isə icra başçısı postuna təyinat alıb. R.Quliyevin sələfi Razim Məmmədovun zamanında Xətai rayonunun adı ağacların kəsilməsi, yaşıllıqların məhvi və qanunsuz tikintilərin baş alıb getməsi ilə bağlı hallanırdı. Təəssüf ki, yerli medianı izlədikdə bu baxımdan Xətaidə hələ də çox şeyin dəyişmədiyi müşahidə edilir.

Xəbərdarlıq alan digər bir rayon rəhbəri - Yasamalın icra başçısı Elşad Həsənovun sələfi İbrahim Mehdiyev vəzifədə olarkən haqqında ən çox şikayət edilən icra başçılarından idi. Onun rəhbərliyi dövründə Yasamalda yaşıllıqların məhvi, əvəzində isə tikinti və ticarət obyektlərinin başıpozuq şəkildə inşası geniş miqyas almışdı. Yenə də təəssüflə qeyd eləmək lazımdır ki, paytaxtın bu ən böyük rayonlarından biri ilə bağlı oxşar məzmunlu şikayətlərə mütəmadi rast gəlinir.

Bakının digər bəzi rayonlarının icra başçılarının fəaliyyəti ilə bağlı da eyni sözləri söyləmək mümkündür. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2006-cı il tarixli sərəncamı ilə Zaqatala Rayon İcra Hakimiyyətinin Başçısı, 25 iyun 2009-cu il tarixli sərəncamı ilə Bakı şəhəri, Səbail Rayon İcra Hakimiyyətinin Başçısı vəzifələrini tutmuş Asif Əsgərovun 2 sentyabr 2015-ci ildən bu yana rəhbərlik etdiyi Nəsimi rayonundan yerli sakinlərin giley-güzarları səngimir. Bu rayonda tikinti şirkətlərinin özbaşınalıqlarına, vətəndaşların mülkiyyət hüquqlarının pozulmasına göz yumulması az qala adət halına çevrilib.

Bir sözlə, qarşıdan gələn payızda biz bölgələrdəki bəzi rayonlarla yanaşı, paytaxtın da bir sıra rayonlarının icra başçılarının öz vəzifələri ilə vidalaşmasına şahidlik edə bilərik.

**_Sənan Mirzə_**

23_27 IYUl-QARA.qxd 7/11/2024 11:16 PM Page 10



# Oliqarxların bahalı biznesinin şok detalları

## Özəl uşaq bağçalarının qiymətləri "od tutub yanır", xidmətin keyfiyyəti isə narahatlıq doğurur

***Ötən həftə Bakıda fəaliyyət göstərən məşhur uşaq bağçasının direktorunun həbs olunduğu barədə rəsmi açıqlama yayıldı.***

Baş Prokurorluğun Mətbuat xidmətinin yaydığı həmin məlumatda qeyd olunurdu ki, "Moon Kids" Məhdud Məsuliyyətli Cəmiyyətində yol verilən qanunsuzluqlarla bağlı Nizami rayon prokurorluğunda istintaq edilən cinayət işi üzrə MMC-nin direktoru Rüstəmova Havvaxanım İmamət qızı Cinayət Məcəlləsinin 178.2.2, 178.2.3, 178.2.4 (qulluq mövqeyindən istifadə etməklə təkrarən və xeyli miqdarda dələduzluq) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələrilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə ibtidai istintaq davam etdirilir.

Qeyd edək ki, H. Rüstəmova "Moon Kids" uşaq bağçasının təsisçisi və direktorudur.

Onun həbsi özəl uşaq bağçalarının problemlərini bir daha aktuallaşdırır.

Məsələ burasındadır ki, uşaq bağçaları azyaşlıların əqli, fiziki, yaradıcı potensialının və şəxsi ünsiyyət bacarıqlarının inkişafında mühüm rol oynayır. Bu səbəbdən valideynlər yeni tədris ilində azyaşlı övladlarını bağçaya qoyarkən qarşılarında iki əsas seçim olur: dövlət və özəl müəssisələr.

Azərbaycanda dövlət bağçaları pulsuzdur. Lakin çox vaxt bu müəssisələrdə yer çatışmır. Özəl bağçalara üz tutan valideynlər isə başda ağlasığmaz qiymətlər olmaqla bir sıra problemlərlə üzləşirlər. Başlayaq qiymətlərdən...

Bir müddət əvvəl Bakupost.az-ın apardığı araşdırma zamanı aydın olub ki, özəl bağçalarda gündə dörd və ya beş dəfə qidalanma olur, dil qrupları fəaliyyət göstərir, əyləncəli və öyrədici oyunlar təşkil olunur, idman, rəsm, şahmat və musiqi dərsləri keçirilir. Həmin bağçalarda təhlükəsizliyə nəzarət yüksək səviyyədədir. Özəl bağçalarda valideynlərə övladının günlük fəaliyyətini canlı izləmək imkanı yaradılır. Araşdırma göstərib ki, özəl bağçalarda ən aşağı qiymət 350 manatdan başlayır.



Məsələn, özəl uşaq bağçalarından birində Azərbaycan, rus və ingilis dilində tədris təklif olunur. Azərbaycan dili bölməsinin aylıq ödənişi 550 manatdır. Rus dili qrupunun 600, ingilis dili qrupunun isə aylıq ödənişi 700 manatdır.

Nəsimi rayonundakı bir özəl uşaq bağçasında tələbat olmadığı üçün Azərbaycan dili qrupu saat 8:00-dan 13:00-a kimi fəaliyyət göstərir. Rus dili bölməsinin aylıq ödənişi 750, ingilis dili bölməsinin isə 800 manatdır.

Nərimanov rayonundakı özəl uşaq bağçalarının birində də həftədə beş gün olmaqla Azərbaycan və rus dili qrupları fəaliyyət göstərir və hər iki qrup üçün aylıq ödəniş 700 manat təşkil edir. İngilis dili bölməsi isə 750 manatdır. Bağçada uşaqlar üçün hovuz da fəaliyyət göstərir.

Yasamal rayonundakı özəl bağçada rus bölməsi 550, ingilis bölməsi isə 600 manatdır. Eyni rayonda yerləşən başqa özəl müəssisədə bütöv gün 450 manat, yarım gün isə 320 manatdır. M.Seyidov küçəsindəki bağçada bütöv gün 400, yarım gün isə 250 AZN təşkil edir.

Xətai rayonundakı özəl uşaq bağçasında səhər 08:30-dan axşam 18:00-a qədər uşaqların təlim tərbiyəsi üçün aylıq ödənişin məbləği 500 manat təyin olunub.

9-cu mkr-da yerləşən özəl uşaq bağçasında Azərbaycan və rus bölmələri üçün ödəniş 350 manat, ingilis dili bölməsi üçünsə 450 manatdır.

Göründüyü kimi, özəl bağçalarda qiymətlər əksər valideynlər üçün əlçatan deyil. Bəs bu qiymətlər həmin bağçalardakı xidmətin keyfiyyəti ilə mütənasibdirmi?

Bir-neçə nümunəyə göz ataq. Ötən ilin sonlarında Abdullayeva Dilbər Kamil qızı 3 yaşlı nəvəsinin getdiyi "Pambıq Bağça"da uşaqlara diqqət göstərilmədiyini, körpələrin nəzarətsiz qaldıqları üçün bir-birlərinə qarşı şiddətli davranışlar sərgilədiyini, bağçadakı natəmizlikdən narahat olduğunu "Patrul.az"a verdiyi müsahibədə dilə gətirmiş, eyni zamanda söylədiklərinin əks olunduğu video materialları da təqdim eləmişdi. O iddia edirdi ki, bütün bunlarla bağlı direktora şikayət etdiyi zaman qarşı tərəf, eləcə də bağça müəllimləri onun üzərinə hücum çəkiblər.

Bundan xeyli əvvəl isə Bakının Yasamal rayonunda yerləşən "Kids Studio" özəl uşaq bağçasının tərbiyəçisi Firuzə Tağıyeva şübhəli şəxs qismində saxlanılıb. Cinayət Məcəlləsinin 133-cü (əzab vermə) maddəsi ilə ittiham olunan Tağıyeva barəsində üç ay müddətinə həbs qətimkan tədbiri seçilmişdi. O, "Kids Studio" mərkəzində azyaşlı uşaqlara kobud davranmaqda və onları döyməkdə ittiham olunur. Sözügedən müəssisədə körpənin döyüldüyü əks olunan video sosial şəbəkələrdə yayılmış və bütün ölkədə rezonansa səbəb olmuşdu.

Bir sözlə, müəyyən istisnalarla özəl uşaq bağçalarındakı fantastik qiymətlərlə xidmətin keyfiyyəti arasında tərs-mütənasiblik hökm sürür. Bu anormal uyğunsuzluğa aidiyyatı qurumların müdaxiləsi isə heç də asan deyil. Məsələ ondadır ki, özəl uşaq bağçalarının mütləq əksəriyyəti yüksək vəzifəli məmurların, deputatların biznesinin bir parçasıdır. Belə ki, həmin müəssisələr onların həyat yoldaşlarına və ya digər qohumlarına məxsusdur.

***Toğrul Əliyev***

# Naxçıvanda yeni publik hüquqi şəxs yaradıldı



***"Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalanıb.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsinə dair Tədbirlər Planı"nın gənclərin şəxsi və peşəkar inkişafı üçün tədbirlərin həyata keçirilməsi ilə bağlı 8.9.7-ci yarımbəndinin icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxsin yaradılması barədə" 2024-cü il 11 iyul tarixində Fərman imzalayıb.

Müvafiq fərmanla yaradılan "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxs muxtar respublikanın dövlət orqanlarında (qurumlarında) çalışan işçilərin peşəkar inkişafının dəstəklənməsi, gənclərin şəxsi və peşəkar inkişafı üçün müxtəlif mövzularda kursların təşkili və təlimlərin keçirilməsi, eyni zamanda, peşə qabiliyyətlərinin yüksəldilməsi məqsədilə fəaliyyət göstərəcək.

Fərmana əsasən, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində mərkəzin nizamnaməsini təsdiq edəcək, habelə nizamnamə fondunun formalaşdırılmasını təmin edəcək.

# MSK "Namizədlər üçün yaddaş" kitabçası hazırlayıb

***Mərkəzi Seçki Komissiyası 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi proqramı çərçivəsində "Namizədlər üçün yaddaş" kitabçası hazırlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən məlumat verilib.

Bildirilib ki, layihənin həyata keçirilməsində başlıca məqsəd, qarşıdan gələn seçkilərdə deputat seçilmək niyyətində olan vətəndaşların məlumatını artırmaq, passiv seçki hüquqlarının reallaşdırılmasında onlara metodiki yardım göstərmək və fəaliyyətlərinin daha da asanlaşdırılmasına imkan yaratmaqdır.

Nəşrdə deputatlığa namizədliyin irəli sürülməsi və qeydə alınması ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş prosedurlar və atılası addımlar, sənədlərin təqdim edilməsi üçün müəyyənləşdirilmiş müddətlər və qaydalar, habelə namizədlərin hüquq və vəzifələri aydın, ətraflı şəkildə göstərilib.

Yaddaş kitabçası Azərbaycan Respublikasının Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi normativ xarakterli aktlar əsasında hazırlanıb.

"Namizədlər üçün yaddaş" kitabçasını aşağı seçki komissiyalarından, eləcə də Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsindən (www.msk.gov.az) əldə etmək olar.

# Azərbaycanda daha bir kanalın yayımı dayandırıldı

***ARB TV-nin yayımı dayandırılıb.***

"Unikal" xəbər verir ki, kanal bu gün saat 11:00-dan yayımını dayandırıb. Yayım 14:00-da başlayacaq.

Buna səbəb isə mayın 21-də Azərbaycan Respublikası ərazisində müstəsna yayım hüququ digər audivizual yayımçıya məxsus olan "127 saat" bədii filminin yayımlanması olub.

Qeyd edək ki, bu gün səhər saatlarında ATV-nin də yayımı müvəqqəti dayandırılmışdı.

23_27 IYUl-QARA.qxd 7/11/2024 11:16 PM Page 11



# Azərbaycanda orta aylıq əməkhaqqı artıb



***Bu ilin yanvar-may aylarında Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,4 % artaraq 1 003,3 manat təşkil edib.***

”Unikal” Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Bu il iyunun 1-nə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 749,4 min nəfər olub, onlardan 893,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 856,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 18,9 %-i təhsil, 18,6 %-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8 %-i sənaye, 8,4 %-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,8 %-i tikinti, 6,4 %-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 %-i nəqliyyat və anbar təsərrüfatı, 3,8 %-i peşə, elmi və texniki fəaliyyət, 3,3 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 %-i maliyyə və sığorta fəaliyyəti, 14,5 %i- isə iqtisadiyyatın digər sahələrində məşğul olub.

# Azad edilmiş ərazilərə keçmək istəyənlər saxlanıldı



***Ağdam və Tərtər Rayon Polis Şöbələrinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə işğaldan azad edilmiş ərazilərə müvafiq icazəsi olmadan daxil olmaq istəyən 4 nəfər saxlanılıb. Həmin şəxslər barəsində inzibati protokollar tərtib edilərək məhkəməyə göndərilib.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan ”Unikal”a verilən məlumata görə, məhkəmənin qərarına əsasən onlar müvafiq qaydada məsuliyyətə cəlb olunublar.

# İki vəkilin fəaliyyəti dayandırılıb

***Azərbaycan Respublikasının Vəkillər Kollegiyası (ARVK) Rəyasət Heyətinin növbəti iclası keçirilib.***

”Unikal” xəbər verir ki, iclasda Vəkillərin İntizam Komissiyasının rəylərinə baxılıb və Rəyasət Heyəti tərəfindən yol verdikləri intizam pozuntularına görə 3 vəkilin fəaliyyəti müəyyən müddətə dayandırılıb.

Eyni zamanda, 2 vəkilə töhmət verilməsi barədə intizam tənbehləri tətbiq edilib, 4 vəkilə xəbərdarlıq olunub, 2 vəkilin fəaliyyəti isə dayandırılmaqla ARVK üzvlüyündən xaric olunması üçün məhkəməyə müraciət edilməsi ilə bağlı qərarlar qəbul edilib.

# Gəncədə bıçaqlanma olub

***Samux rayon sakini, Vətən müharibəsi iştirakçısı, əvvəllər məhkum olunmuş, 2000-ci il təvəllüdlü Taleh Məhərrəmov xuliqanlıq zəminində Gəncə şəhər sakini E. İbrahimova bıçaq xəsarət yetirib.***

”Unikal”ın məlumatına görə, T. Məhərrəmov polis əməkdaşları tərəfindən saxlanılıb.

# Məmurların bahalı avtomobillər aldığı şirkətin başı dərddə...

## Məşhur şirkət niyə dayanmadan məhkəməyə verilir və cərimələnir?

***”İdeal Motors” Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) növbəti dəfə məhkəmə qalmaqalı ilə üzləşib. Şirkət barəsində gömrük qaydaları əleyhinə olan inzibati xəta protokolu tərtib edilib.Qaynarinfo-nun məlumatına görə, protokol İnzibati Xətalar Məcəlləsinin 485.2-ci maddəsi ilə irəli sürülüb.***

Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinin 485.2-ci maddəsinə əsasən, Gömrük Məcəlləsi ilə müəyyən edilmiş hallarda qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsinə görə vəzifəli şəxslər 1 000 manat, hüquqi şəxslər 1 500 manat məbləğində cərimə edilir.

İş Yasamal Rayon Məhkəməsinin hakimi Orxan Məmmədlinin icraatındadır.



Xatırladaq ki, ”İdeal Motors” MMC 28.11.2018-ci il tarixində dövlət qeydiyyatına alınıb. Hazırda ”İdeal Motors” MMC ”Performance Center” şirkətinin rəsmi dilleridir. Bu şirkət əsasən ”Chevrolet”, ”Baic” və ”Jak” avtomobillərinin satışını həyata keçirir.

Onu da əlavə edək ki, ”İdeal Motors”un adı son vaxtlar məhkəmə işləri ilə bağlı mütəmadi hallanır. Bundan əvvəl mart ayında adıçəkilən MMC barəsində vergilərin, rüsumların ödənilməsi, maliyyə və sığorta qaydaları əleyhinə olan ( İcbari sığorta müqaviləsinin bağlanmaması) inzibati xəta protokolu tərtib olunmuşdu. Protokol İnzibati Xətalar Məcəlləsinin 469.3-cü maddəsi ilə irəli sürülüb.

İnzibati Xətalar Məcəlləsinin 469.3-cü maddəsinə görə “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə mülki məsuliyyəti icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş avtonəqliyyat vasitəsi sahibləri tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə fiziki şəxslər 50 manat məbləğində, vəzifəli şəxslər 100 manat məbləğində, hüquqi şəxslər 300 manat məbləğində cərimə edilir.

İyulun əvvəllərində isə Fed.az məlumat yaymışdı ki, ”İdeal Motors” yol hərəkəti qaydaları əleyhinə olan (Nəqliyyat vasitələrinin dövlət qeydiyyatının aparılması, texniki baxışın keçirilməsi, nəqliyyat vasitəsinin sazlığı haqqında sənədin və sürücülük vəsiqəsinin verilməsi və cərimənin alınması qaydalarının pozulması) inzibati xəta üzrə məhkəməyə verilib. Şirkət barəsində İnzibati Xətalar Məcəlləsinin 339.1-ci maddəsi ilə protokol irəli sürülüb. Həmin maddəyə görə nəqliyyat vasitələrinin sahibləri və ya sürücüləri tərəfindən “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə nəqliyyat vasitəsini dövlət qeydiyyatından keçirmədən idarə etməyə və ya dövlət qeydiyyatından keçirilmiş nəqliyyat vasitəsi icarə və ya digər əşya hüquqlarına dair müqavilə (notarius tərəfindən təsdiq edilən müqavilələr istisna olmaqla) əsasında başqa şəxsə verildikdə onu təkrar dövlət qeydiyyatından keçirməməyə, yaxud nəqliyyat vasitəsinin geri qaytarılması barədə öhdəçiliyə əməl etməməyə və ya nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsinin rəsmiləşdirilməsi və ya girov qoyulması qaydalarını pozmağa görə fiziki şəxslər əlli manat məbləğində, vəzifəli şəxslər yüz manat məbləğində, hüquqi şəxslər üç yüz manat məbləğində cərimə edilir.

Ötən ilin noyabrında isə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən verilən məlumata görə, 2023-cü ilin əvvəlində “İdeal Motors”ın müştəriyə satdığı avtomobildə istehsal qüsuru aşkarlanmışdı. Avtomobilin təmiri qərara alınsa da, təmir üçün sifariş edilmiş ehtiyat hissələrinin çatdırılmaması səbəbindən uzun müddət təmir həyata keçirilməyib. Müştəri bununla bağlı malın qaytarılmasını tələb etdikdə isə, tələbi yerinə yetirməyib. Dövlət xidməti bu hərəkətə görə, aprel ayında “İdeal Motors”u İnzibati Xətalar Məcəlləsinin 444.2 maddəsi ilə cərimələyib (600-900 manat) və ona qüsurlu malı geri qaytarmaq barədə göstəriş verib.

“İdeal Motors” MMC həmin göstərişi yerinə yetirməyib və nəticədə Xidmət yenidən işə qarışmalı olub. Bu dəfə “İdeal Motors” artıq Xidmətin yazılı tələbini yerinə yetirmədiyinə görə İnzibati Xətalar Məcəlləsinin 544.2 bəndi ilə 4-5 min manat məbləğində cərimə edilib.

Onu da deyək ki, adıçəkilən şirkət müxtəlif dövlət qurumlarından böyük məbləğdə tenderlər udur. Məsələn, ötən ilin avqustunda bu MMC 840 min manatlıq satınalmanın qalibi olmuşdu. Tenderi keçirən dövlət qurumu tərəfindən tələb olunan avtomobillərin sayı 20 ədəddir. Bu isə o demək idi ki, şirkət 1 avtomobili həmin quruma 42 min manata satıb.

2022-ci ildə isə Ərazi Tikinti-Planlaşdırma Mərkəzi ilə ”İdeal Motors” arasında bağlanmış ”1 (bir) ədəd sedan tipli “Chevrolet Aveo Premier” və 16 (on altı) ədəd yüksək keçicilik qabiliyyətli universal tipli “Lada-Niva LC” model “minik avtomobilləri üçün sürtkü materiallarının, ehtiyat hissələrinin alınması və onların dəyişdirilməsi işləri”nin satınalınması” müsabiqəsinin məbləği 29 189.9 AZN olmuşdu. Həmin vaxt media bu müqavilə ilə bağlı ”Dövlət Satınalma Portalı”nda ətraflı məlumatın göstərilmədiyinə diqqət çəkmişdi.

Onu da deyək ki, bir sıra imkanlı şəxslərin, o cümlədən məmurların və onların ailə üzvlərinin öz şəxsi avtomobil kolleksiyalarını zənginləşdirərkən ”İdeal Motors”un xidmətindən də faydalandıqları bildirilir.

Bütün bunların fonunda isə adıçəkilən məşhur şirkətin niyə dayanmadan məhkəməyə verildiyi, cərimələndiyi maraq doğurur.

***Sənan Mirzə***

## 5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Tolerantlığın Azərbaycan nümunəsi

### Ramazan Xutrayev: "Mənim yaşadığım Balakən rayonunda indiyədək heç vaxt milli zəmində ayrıseçkiliyin şahidi olmamışam".



***Azərbaycan xalqı əsrlərdir ki, tolerantlıq ənənəsini qoruyub saxlayır. Müxtəlif etnosların yaşadığı Azərbaycanda artıq milli-mədəni və dini münasibətlər sistemi formalaşıb. Ölkəmizdə hər kəsə dini baxışlarına, milliyyətinə görə fərqli münasibət göstərilmir. Ölkə vətəndaşları dinə münasibətlərindən asılı olmayaraq bərabərhüquqludurlar.***

Zaqatala və Balakən rayonları Azərbaycanın avarların sıx məskunlaşdığı bölgələrindəndir. Azərbaycan Yazıçılar Birliyinin üzvü Ramazan Xutrayev "Unikal"a açıqlamasında Azərbaycandakı tolerantlıq mühitindən bəhs edib.

O, bildirib ki, bu bölgədə yaşayan insanlar öz mədəniyyətini, adət-ənənələrini, keçmişini, tarixini qorumaqdadır.Həmsöhbətimiz deyir ki, avarlar tarix boyu bu torpaqlarda yaşayıblar və Azərbaycanı da hər zaman öz Vətənləri hesab ediblər. Çoxsaylı şeirlər müəllifi olan şair indiyədək avarlara qarşı heç bir milli ayrıseçkiliyin qoyulmadığını, Azərbaycanın tolerantlıq nümunəsi olduğunu söyləyir. Həmsöhbətimiz deyir ki, 44 günlük müharibə azsaylı xalqların birliyinin təzahürünə çevrildi. Onun sözlərinə görə, Balakən rayonunun Qabaqçöl qəsəbəsindən də dörd şəhid torpaqlarımızın müdafiəsində iştirak edərək uca zirvəyə yüksəlib. R. Xutrayev özü də 44 günlük müharibə dövründə əsgərləri ruhlandırmaq üçün vətənpərvərlik ruhunda şeirlər yazdığını söyləyir. Avar xalqının nümayəndələrinin böyük zəfərin qazanılmasında iştirakı azsaylı xalqların Azərbaycan uğrunda bir yumruq kimi birləşdiyini göstərdi.

"Azərbaycan qədimdən azsaylı xalqlara qarşı dözümlülük, tolerantlıq nümayiş etdirib. Mənim yaşadığım Balakən rayonunda indiyədək heç vaxt milli zəmində ayrıseçkiliyin şahidi olmamışam. Rayonumuzda keçirilən tədbirlərdə avar xalqının nümayəndəsi kimi iştirak edirəm. İndiyədək çoxsaylı diplomlarla təltif olunmuşam. Biz Azərbaycanı vətənimiz hesab edirik. Əks halda biz övladlarımızı vətənpərvər ruhda tərbiyə etməzdik. 44 günlük müharibədə şəxsən iştirak edə bilməsəm də əsgərlərə mənəvi dəstək oldum. Dünya gördü ki, Azərbaycanda yaşayan bütün azsaylı xalqlar öz Ali Baş Komandanı cənab Prezident İlham Əliyevin ətrafında necə sıx birləşib",-avar xalqının ziyalısı söyləyib.

Müsahibimiz onu da qeyd etdi ki, bu gün bölgədə yaşayan avarlar dövlətimizə, dövlətimizin başçısına inanırlar və onun milli siyasətini, bu bölgədə yaşayan azsaylı xalqlara münasibətini dəstəkləyirlər. Balakəndə yaşayan avarlar bütün problemlərinin həllində ümidləri ni dövlət başçısına bağlayıblar. Onun sözlərinə görə, Azərbaycanda mövcud olan sabitlk, tolerantlq, multikulturalizm, xalqlar arasındakı vəhdət əbədidir. Heç bir qüvvə bu birliyi pozmağa qadir deyildir: " Dövlətimizin başçısı İlham Əliyevin diqqət və qayğısı nəticəsində bir çox etnik azlıqların -avarlar, saxurlar, inqoloylar, ləzgilər, axaxlar, qarallar və s. kompakt yaşadıqları bu bölgə gündəngünə inkişaf edir, daha da gözəlləşir, abadlaşır.

Şair bildirir ki, multikultrallıq artıq Azərbaycan xalqının həyat tərzinə çevrilib. Bu gün Azərbaycanda nəinki milli, həmçinin dini zəmində də heç bir münaqişə qeydə alınmır. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi özünü azad və firavan hiss edir. Ölkəmizdə azsaylı xalqlara göstərilən multikultral davranış dünyaya örnəkdir!

Onu da qeyd edək ki, Azərbaycanda multikulturalizm siyasətinin əsasının qoyulması mərhum prezident Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində respublikada dövlət-din münasibətlərinin yeni istiqaməti formalaşdı, tolerantlığın daha da inkişaf etdirilməsi üçün hüquqi baza yaradıldı. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə yaşayan bütün azsaylı xalqların və dinlərin nümayəndələrinin hüquqlarını, vicdan azadlığını təsbit etdi. Konstitusiyamızın 48-ci maddəsində qeyd olunur ki, hər bir vətəndaş vicdan azadlığını, dinə münasibətini müstəqil müəyyənləşdirmək, dini əqidəsini sərbəst ifadə etmək və yaymaq, dini mərasimləri ni sərbəst yerinə yetirmək hüququna malikdir. H.Əliyev tərəfindən yaradılan müdrik siyasi xətt Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müasir Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan multikulturalizmin inkişafına Prezident İlham Əliyevin fərmanı ilə 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi mühüm töhfə olub. Bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun məqsədyönlü və ardıcıl fəaliyyəti xüsusilə qabarıq nəzərə çarpır. Fond yarandığı gündən fəaliyyətində milli-mənəvi dəyərlərimizin qorunmasına, tarixi-mədəni abidələrimizin bərpasına və tolerantlığın təşviqinə böyük önəm verir. Bu gün Azərbaycanda yalnız kilsə və sinaqoqlar deyil, eyni zamanda bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst fəaliyyət göstərir və onlara dövlət tərəfindən lazımi dəstək verilir. Hazırda Azərbaycan əhalisi həm etnik, həm də dini baxımdan zəngindir. Ölkəmizdə bütün etnik və dini icmalar arasında möhkəm dostluq və əməkdaşlıq əlaqələri formalaşıb. Bu ali dəyər xalqımız tərəfindən qorunaraq gələcək nəsillərə ötürülür.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Yeni dəyişikliklə hərbçilərin pensiyaları belə artacaq

***"Nazirlər Kabineti "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edib. Kabinetin son qərarı "Əmək pensiyaları haqqında" qanunda müzakirə edilən dəyişikliklər ilə bağlıdır və bununla da pensiyaların hesablanması qaydasına əlavələr gətirir".***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, Nazirlər Kabinetinin təsdiq etdiyi yeni qaydalar pensiyalar hesablanan zaman hərbi qulluqçuların xidməti yaşının dəyişdirilməsini nəzərdə tutmaqla yanaşı qanunverici dəyişikliklər pensiya məbləğlərinin hesablanması mexanizmini də yeniləyir:

""Əmək pensiyaları haqqında" qanunda edilən dəyişikliklərə əsasən, minimum xidmət müddətinə görə qulluq stajına görə əlavənin faizi 50-dən 65-ə qaldırılır. Eyni zamanda, 25 ildən yuxarı hərbi xidmətin hər ili üçün müvafiq təminat xərcliyinin-2 faizi (müdafiə sistemində xidmət edən şəxslər üzrə isə - 3 faizi) miqdarında əlavə olunacaq. Bu o deməkdir ki, əgər əvvəlki qaydalar ilə qulluq stajına görə əlavənin 50 faizi götürülərək pensiya məbləği hesablanırdısa, yeni dəyişikliklər ilə bu rəqəm 65 faiz olacaq. Bu da birbaşa pensiya məbləğinin artmasına xidmət edəcək. Bu o deməkdir, bu şərtlərlər daxilində pensiyaya çıxan hərbçilərimizin pensiyalarında artım olacaq".

V.Bayramov bildirib ki, dəyişikliklərə əsasən, 1 yanvar 2024-cü ilədək xidmət müddətinin ən azı 17 ili tamam olan hərbçilərimiz 20 il tamam olandan sonra pensiyaya çıxa bilərlər: "Yəni, əgər hərbçimiz 17, 18 və ya 19 il qulluq edibsə və yeni dəyişikliklərdən sonra 25 deyil, 20 xidmət ilindən sonra pensiyaya çıxmaq istəyirsə, qanun buna imkan yaradacaq. Bu zaman hərbçimiz öz istəyindən asılı olaraq ya 20 xidmət ili tamam olanda da pensiyaya çıxa və ya 25 il qulluq edib daha yüksək məbləğ ilə pensiya hüququ qazana bilər. Bununla da pensiyaya çıxmağa 3 ili qalan hərbçilərimiz üçün seçim təklif olunur və qulluq müddəti ilə bağlı dəyişikliklər onlara təsir etmir. Digər tərəfdən, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, gizirlər və miçmanlar üçün dinc dövrdə həqiqi hərbi xidmətdə olmağın son yaş həddinin 45-dən 48-ə artırılır.

Bu dəyişikliyin əsas məqsədi adıçəkilən hərbi qulluqçuların hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə müddətində (25 təqvim ili ərzində) hərbi xidmətdə olmalarının təmin edilməsi, habelə onların təcrübəsindən daha səmərəli və uzun müddət yararlanmaqdır".

# Binəqədidə çörək sexinin fəaliyyəti dayandırıldı



***Bakının Binəqədi rayonu, Binəqədi qəsəbəsində yerləşən "Binəqədi Çörək" MMC-yə məxsus çörək istehsalı sahəsində yoxlama aparılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Fövqəladə Hallar Nazirliyi (FHN) məlumat yayıb. Bildirilib ki, yoxlama zamanı obyektdə yanğın təhlükəsizliyinin təmin edilməsi tədbirləri işlənib hazırlanmadığı, bəzi sahələri yanğınxəbərverici siqnalizasiya qurğusu ilə təmin olunmaması və quraşdırılmış yanğınxəbərverici siqnalizasiya qurğusu isə işlək vəziyyətdə olmaması aşkar edilib.

Həmçinin məlum olub ki, obyektdə elektrik təsərrüfatı "Elektrik Qurğularının Quraşdırılması Qaydası"nın tələblərinə uyğun quraşdırılmayıb, obyekt yanğın su hovuzu ilə təmin edilməyib.

"Qeyd olunanları nəzərə alaraq, yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinin kobud pozulması faktları aşkar edilmiş Binəqədi rayonu, Binəqədi qəsəbəsində yerləşən "Binəqədi Çörək" MMC-yə məxsus çörək istehsalı sahəsinin fəaliyyətinin dayandırılması barədə Qərar qəbul olunub və Qərarın bir nüsxəsi obyektin nümayəndəsinə təqdim edilib", - məlumatda qeyd edilib.

# Musiqi məktəblərinə qəbul imtahanlarının nəticələri açıqlandı



***Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərinə 2024-2025-ci tədris ili üçün qəbul imtahanlarının nəticələri elan olunub.***

Bu barədə "Unikal"a Mədəniyyət Nazirliyindən məlumat verilib. Bildirilib ki, imtahanın nəticələri barədə namizədlərə "MyCulture" vahid şəxsi kabinet (my.culture.az) və elektron poçt vasitəsilə müvafiq bildirişlər göndərilib.

Bununla yanaşı, namizədlər vətəndaş məmnunluğunun və məlumatlandırma səviyyəsinin yüksəldilməsi məqsədilə alternativ kimi yaradılmış //imtahan.culture.az resursuna daxil olaraq imtahan nəticəsi ilə bağlı məlumat əldə edə bilərlər.

Qeyd edilib ki, 6-31 may tarixlərini əhatə edən elektron qeydiyyat mərhələsi zamanı musiqi, incəsənət məktəb və mərkəzlərinə qəbul olmaq istəyən 16 280 nəfərin müraciəti "my.culture.az" vahid şəxsi kabinet vasitəsilə qeydə alınıb. Müraciət edənlərin 12 196 nəfəri, yəni 75 faizi bu imtahanlarda uğurlu nəticə əldə edərək musiqi, incəsənət məktəb və mərkəzlərinə qəbul olunub. İmtahan nəticələrinə görə, ödənişsiz yerlərə qəbul olunanların sayı 9 428, ödənişli yerləri qazananların sayı isə 2 768 olub.

Məlumatda bildirilib ki, bu il məktəblərə qəbul olunan şagirdlərin sayı ötən illə (10 215) müqayisədə, 2 000 nəfərə yaxın daha çoxdur.

Uğurlu nəticə göstərmiş şagirdlər 15 avqust 2024-cü il tarixinə qədər elektron qəbul prosesini öz şəxsi kabinetləri vasitəsilə tamamlamalıdırlar. Bunun üçün istifadəçi "my.culture.az" vahid şəxsi kabinetinə daxil olub, "Təhsilalanların yerləşdirilməsi" bölməsindən zəruri məlumatları əlavə etməklə və tələb olunacağı təqdirdə təhsil haqqını müvafiq qaydada ödəməklə qəbul prosesini tamamlayır. İmtahan nəticələri ilə bağlı apellyasiya müraciətlərinə 15-17 iyul tarixlərində baxılacaq. Əlavə edilib ki, mədəniyyət sahəsində islahat tədbirlərinin əsas məramı şəffaf və effektiv idarəetmə, rəqəmsal həllərin tətbiqi və vətəndaş məmnuniyyətinin təmin olunmasıdır. Musiqi, incəsənət məktəb və mərkəzlərinə qəbul prosesi "e-Culture" rəqəmsal inkişaf strategiyası çərçivəsində icra olunur ki, bu da çevik və birbaşa kommunikasiya və şəffaflığın təmin olunmasında vacib əhəmiyyət daşıyır.

# Qarabağ Universitetində SABAH qruplarına vakansiya elan edildi

***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi Qarabağ Universiteti SABAH qrupları layihəsinin bakalavriat səviyyəsində 2024/2025-ci tədris ilinin payız semestri üçün müvafiq ixtisaslar üzrə fənlərin tədrisi məqsədilə professor-müəllim heyəti saathesabı qaydada işə dəvət olunur.***




"Unikal" xəbər verir ki, işə qəbul şərtləri aşağıdakı kimidir. Seçiləcək professor-müəllim heyətinin vəzifələri:

Bakalavriat səviyyəsində keyfiyyətli tədrisin aparılması;?

Kurs sillabusunun hazırlanması;?

Tələbə biliyinin vaxtında və düzgün qiymətləndirilməsi;?

SABAH qrupları layihəsinin tədrisin aparılması metodikası və təkmilləşdirmə ilə əlaqədar müvafiq təlimlərin keçirilməsi üzrə tələblərə riayət edilməsi;?

Müvafiq ali təhsil müəssisənin daxili intizam və sənədləşmə qaydalarına riayət edilməsi;?

Həmkarlar və tələbələrlə münasibətdə etik davranış qaydalarına riayət edilməsi.

Müsabiqədə iştirak etmək üçün tələblər:?

Ən azı üç il ali təhsil pilləsində pedaqoji təcrübəyə və (və ya) sahə üzrə iş təcrübəsinə malik magistr və daha yüksək elmi dərəcəyə malik olması;

Xarici ali təhsil müəssisəsindən alınmış diplomun Azərbaycan Respublikasının müvafiq orqanı tərəfindən nostrifikasiyasının (tanınmasının) olması;

Tədris edəcəyi fənn və müvafiq ixtisas üzrə hərtərəfli biliyə və müasir ədəbiyyatla tanışlığa malik olması;

Tədrisdə İKT-dən hərtərəfli istifadə edə bilməsi;

İnnovativ tədris metodlarını tətbiq edə bilməsi;

Tədrisdə müasir pedaqoji yanaşmalardan istifadə edə bilməsi;

Mövzunu təqdimetmə və fikrini səlis çatdırma bacarığına malik olması;

Dinamik, təşəbbüskar, pozitiv olması;

Geniş dünya görüşü və SABAH qruplarında müvafiq fənni tədris etməsi üçün xüsusi motivasiyanın olması.?

Qeyd edilən vəzifə və tələblərə uyğun gələn namizədlər aşağıdakıları nəzərə almalıdır:?

İngilis dili fənni üzrə tədris kvalivkasiya sertifikatlarının (TKT, TESOL, CELTA, DELTA və s.) olmasına üstünlük veriləcək;

SABAH qruplarında tədrisin aparılmasının onun əsas iş yeri ilə razılaşdırılması öhdəliyi müraciət edənin üzərinə düşür;

Hər bir namizəd ən çoxu 2 fənn üzrə müraciət edə bilər;

Vakant fənlərin siyahısına?"Fənlər"?bölməsində baxa bilərsiniz;

Müraciət etmək üçün?"Müraciət forması"nı bölmələr üzrə tam doldurmağınız tələb olunur;

Qeydiyyatınızı tamamladıqdan sonra sənədlərinizin (şəxsiyyət vəsiqəsi, diplomlar və onların nostrifikasiyası, pedaqoji və iş təcrübəsi ilə bağlı müvafiq arayış və ya əmək kitabçası, sertifikat, CV, fənn sillabusu) surətlərini lala.naghiyeva@karabakh.edu.az?ünvanına göndərməyiniz tələb olunur;

Qeydiyyat ilə bağlı sual yarandıqda,?lala.naghiyeva@karabakh.edu.az ünvanına müraciət edə bilərsiniz;

Yalnız müsahibə mərhələsinə keçmiş namizədlərlə anketdə qeyd etdikləri email ünvanı vasitəsilə qeydiyyat bağlandıqdan sonra 15 iş gün ərzində əlaqə saxlanılacaq;

Müsahibə mərhələsi 3 meyar üzrə (sahə üzrə bilik və bacarıqlar, SABAH qruplarında tədris etmə motivasiyası və kommunikasiya bacarıqları və təqdimat bacarıqları) aparılacaq;

Bu seçim müvafiq fənn üzrə yalnız 2024/2025-ci tədris ilinin payız semestrində tədrisini nəzərdə tutur və növbəti tədris ilində (və ya semestrində) Sizin bu fənni tədris etməklə bağlı öhdəliyiniz, SABAH qrupları layihəsi İcra Komitəsinin isə mütləq təminatı yoxdur.?

Müsabiqədə iştirak üçün son müraciət tarixi -?19.07.2024 saat 23:59?

Qeyd edək ki, seçim zamanı elmi dərəcə, müvafiq sahə üzrə iş və ya ali təhsil müəssisəsində tədris təcrübəsi və xaricdə təhsilin olmasına üstünlük veriləcəkdir.

# Dövlət sektorunda çalışanların sayı azalıb, özəl sektorda çalışanların sayı isə artıb

***2024-cü il iyunun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1749,4 min nəfər olmuş, onlardan 893,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 856,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.***

"Unikal" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, iqtisadiyyatın dövlət sektorunda çalışanların sayı son bir ildə 5.5 min nəfər azalıb, qeyri-dövlət sektorunda (özəl) çalışan muzdlu işçiləri sayı isə 28.6 min nəfər artıb. Beləliklə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı son bir ildə 23.1 min nəfər artıb.

Qeyd edilib ki, muzdla işləyənlərin 18,9%-i təhsil, 18,6%-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8%-i sənaye, 8,4%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,8%-i tikinti, 6,4%-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3%-i nəqliyyat və anbar təsərrüfatı, 3,8%-i peşə, elmi və texniki fəaliyyət, 3,3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2%-i maliyyə və sığorta fəaliyyəti, 14,5%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.



# 33 mindən çox abituriyent I və IV qrupa imtahan verəcək



***Dövlət İmtahan Mərkəzi (DİM) iyulun 14-də I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirəcək.***

DİM-dən "Unikal"a verilən məlumata görə, həmin gün III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni üzrə də imtahan keçiriləcək. İmtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Qazax, Ağstafa, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Masallı və Xaçmazda təşkil olunacaq. İştirakçılar iyulun 5-dən etibarən Dövlət İmtahan Mərkəzinin saytından "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilirlər. "İmtahana buraxılış vərəqəsi"ndə imtahanın keçiriləcəyi şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

Abituriyentlərin bir daha nəzərinə çatdırırıq ki, imtahan saat 10:00-da başlanır.

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Abituriyentlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli.

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə 139 imtahan binası, 2459 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 139 ümumi imtahan rəhbəri, 400 imtahan rəhbəri, 3081 nəzarətçi, 438 buraxılış rejimi əməkdaşı, 139 bina nümayəndəsi cəlb olunub.

İmtahanda I ixtisas qrupu üzrə 22 888, IV ixtisas qrupu üzrə 5 039, III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə imtahanda isə 5156 nəfər olmaqla, ümumilikdə 33 083 abituriyentin iştirakı nəzərdə tutulur.

İmtahanda 50 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyentlər də iştirak edəcək. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Hazırda qeyd olunan şəhər və rayonlarda imtahanlarda iştirak edəcək digər nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilir, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb. Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə iyulun 13-də təkrar baxış keçiriləcək və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

İmtahanların gedişini işıqlandırmaq üçün 27 KİV nümayəndəsi DİM-də akkreditasiyadan keçib.



## Məktəbəhazırlıq qruplarına qeydiyyat başlayır

***İyulun 11-i saat 11:00-dan 2024-2025-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına qəbul üçün qeydiyyata start verilir.***

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən bildirilib ki, qeydiyyat mektebeqebul.edu.az elektron sistemi üzərindən həyata keçiriləcək.

Azərbaycan bölməsi üzrə məktəb və müəllim seçimi iyulun 16-sı saat 11:00-da, tədrisin digər dillərdə aparıldığı bölmələr üzrə məktəb və müəllim seçimi isə iyulun 18-i saat 11:00-da aktiv ediləcək.

Qeyd edək ki, məktəbəhazırlıq qruplarına cari ildə 5 yaşı tamam olan uşaqlar (2019-cu il təvəllüdlü) qəbul edilirlər.

Məktəbəhazırlıq qruplarına qəbul zamanı da üstünlük hüququ tətbiq ediləcək. Belə ki, Azərbaycan bölməsi üzrə iyulun 16-dan 30-dək Bakı və Gəncə şəhərlərində yerləşən 45, rus bölməsi üzrə isə iyulun 18-dən avqustun 1-dək Bakı və Gəncə şəhərlərində yerləşən 111 ümumi təhsil müəssisəsində prioritet tətbiq ediləcək.

Həmin müəssisələrin siyahısı mektebeqebul.edu.az saytında yerləşdiriləcək.

## Uşaqların məscidə aparılması qadağan edildi

***Daxili İşlər Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi vətəndaşlara müraciət edib.***



"Unikal"ın məlumatına görə, müraciətdə deyilir: "Dini etiqad azadlığı haqqında" qanuna əsasən dini mərasimlər yalnız məscid və ziyarətgahların ərazisində keçirilməlidir. Bütün mərasimlər zamanı, o cümlədən cari ilin iyulun 7-dən başlayan Məhərrəm ayında dini ibadət yerlərində təhlükəsizliyin təmin edilməsi və yollarda nəqliyyatın hərəkətinin tənzimlənməsi üçün müvafiq tədbirlər görülür.

Bəzi hallarda valideynlərin azyaşlı uşaqlarını dini ayinlərin icra olunduğu məkanlara aparması halları müşahidə olunur. Valideynlərdən xahiş edirik ki, kütləvi mərasimlərin keçirildiyi yerlərdə, o cümlədən təziyə məclislərində azyaşlı uşaqların iştirakının onların təhlükəsizliyi və sağlamlığı baxımından məqsədəuyğun olmadığını nəzərə alsınlar, habelə qanunvericiliklə icazə verilməyən hallara yol verilməməsinə diqqətlə yanaşsınlar.

Hər bir şəxsin həyatının, sağlamlığının, hüquqlarının, qanuni mənafelərinin qorunması məqsədi daşıyan bu müraciətə həssas yanaşacağınıza ümid edir, anlayışınıza görə təşəkkür edirik.

# Vətənin şəhid oğlu unudulmur...

***Şəhidlik ən uca zirvədir. Vətən, torpaq yolunda bu zirvəyə ucalanlar heç zaman ölmürlər. Şəhidlər milyonların ürəyində özünə yurd-yuva qurmaqla əbədi ömür qazanırlar. Məhz İqbal Əhmədağa oğlu Bayramovun da nəsibi şəhidlik zirvəsindən boylamaq səadəti oldu...***



Adında bütöv bir xalqın qəhrəmanlıq simvolunu yaşadan İqbal Bayramov 1977-ci ildə Lənkəran rayonunun Hirkan qəsəbəsində dünyaya göz açıb. 1998-2004-cü illərdə hərbi xidmətdə yollanan İqbal Vətəninə ləyaqətlə xidmət edib. 2004-2005-ci illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Biləcəri qəsəbəsində yerləşən "N" saylı hərbi hissəsində baş leytenant hərbi rütbəsində tağım komandiri vəzifəsində çalışıb. Daha sonra Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətini davam edib. 2011-ci ildə mayor hərbi rütbəsi alıb və qərargah rəisinin xidmət üzrə müavini vəzifəsində xidmət edib. Onu Vətənini sevən bir zabit kimi Qəbələ rayonunda və Şirvan şəhərində yerləşən "N" saylı hərbi hissələrinə göndəriblər. Xidmət etdiyi müddətdə yalnız təmiz ürəkli, vicdanlı, qeyrətli bir Vətən oğlu olaraq tanınıb, sevilib. 5 yanvar 2018-ci ildə Daxili Qoşunların sıralardan ehtiyata buraxılması barədə müraciət edən İqbal Bayramov 14 yanvar mayor hərbi rütbəsi ilə ehtiyata buraxılıb.

27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərə qatılıb. İştirak etdiyi bütün ağır müharibə meydanlarında rəşadət nümunəsi göstərib. Erməni dığalarına yaxşı qan uddurub, mərdliyi, qəhrəmanlığı nümunə olub. Oktyabrın 5-də döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Azərbaycan ordusunun mayoru İqbal Bayramov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", Füzulinin, Cəbrayılın azadlığı uğrunda medalları ilə təltif edilib. Həmçinin onun adını özündə yaşadan digər yadigarlar da indi çoxdur.

Azərbaycanın, eləcə dünyanın hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük haqq savaşımızın qalib şəhidi İqbal Bayramovun 47 yaşı tamam oldu. Lənkəranlılar onun məzarını ziyarət edib, ehtiram əlaməti olaraq üstünə gül dəstələrini qoydular.

***Zəfər Orucoğlu, AJB üzvü***

23_27 IYUl-QARA.qxd 7/11/2024 11:17 PM Page 15



## "Tehranı vasitəçi kimi nəzərdən keçirməyə hazırıq" - Rusiya XİN



***Əgər İran maraqlı olarsa, Moskva Tehranı Ukrayna ətrafında vəziyyətin nizamlanmasında vasitəçi kimi nəzərdən keçirməyə hazırdır.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko bildirib.

Rusiyalı diplomat Valday Diskussiya Klubunun iclasında çıxışı zamanı deyib: "Hələlik biz iranlı dostlarımızdan belə siqnallar almamışıq, lakin İran hazırda təxminən iyirmi ölkənin həyata keçirdiyi vasitəçilik səylərinə qoşulmaqda maraqlı olarsa, biz bunu nəzərdən keçirməyə hazırıq".

## "Sülh sazişinin bağlanmasını qətiyyətlə dəstəkləyirik" - Xüsusi nümayəndə

***NATO Ermənistan-Azərbaycan münasibətlərinin nizama salınmasını və davamlı sülh sazişinin bağlanmasını qətiyyətlə dəstəkləyir.***

"Unikal" xəbər verir ki, bu barədə NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ksavye Kolomina Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Vaşinqtonda görüşündən sonra "X" səhifəsində yazıb.

"NATO-Azərbaycan ikitərəfli əməkdaşlığının və sülh danışıqlarının hazırkı vəziyyəti müzakirə edilib", - deyə o qeyd edib.

## Orban Trampla da görüşəcək

***Macarıstanın baş naziri Viktor Orban Vaşinqtonda keçirilən NATO sammitindən sonra Floridaya gedərək orada ABŞ-nin keçmiş prezidenti Donald Trampla görüşəcək.***

"Unikal" xəbər verir ki, bu barədə "Bloomberg" mənbələrə istinadən yazıb.

Qeyd olunub ki, bu səfər Orbanın Rusiya prezidenti Vladimir Putin və Tramp arasında vasitəçilik etməsi ilə bağlı qorxuları artıra bilər. Görüşün iyulun 11-də Donald Trampın Mar-a-Laqo malikanəsində keçirilməsi planlaşdırılır.

## Erməni hərbçi Ukraynada öldürüldü

***Armen Aruşanyan adlı erməni hərbçi Ukraynadakı müharibə zamanı öldürülüb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiyadakı Ermənilər İttifaqı məlumat yayıb.

Armen Roberti Aruşanyan Rusiya ordusunda xidmət edirmiş. Onun ukraynalılar tərəfindən hansı istiqamətdə öldürüldüyü məlum deyil.

## NATO ölkələri 2026-cı ildə Türkiyədə toplanacaq

***İyulun 9-11-də Vaşinqtonda keçirilən NATO sammitinin yekun bəyanatında Türkiyənin 2026-cı ildə NATO sammitinə ev sahibliyi edəcəyi bildirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə mətbuatı məlumat yayıb.

Sənəddə həmçinin NATO-nun növbəti iclasının Hollandiyada baş tutacağı qeyd olunub.

"Amerika Birləşmiş Ştatlarının bizə göstərdiyi səxavətli qonaqpərvərliyə görə minnətdarıq və 2025-ci ilin iyununda Hollandiyanın Haaqa şəhərində, daha sonra isə Türkiyədə keçiriləcək növbəti sammitimizi səbirsizliklə gözləyirik", - deyə məlumatda bildirilir.

# "Ermənistan ərazisinin bir millimetri də verilməyib" - Simonyan

***"Ermənistan ərazisinin bir millimetri də heç bir qonşu ölkəyə verilməyib".***

"Unikal" xəbər verir ki, bunu Ermənistan parlamentinin spikeri Alen Simonyan parlamentin növbədənkənar sessiyasında deyib.

O, "Hayastan" fraksiyasının deputatı Artur Xaçatryanın çıxışına cavab verərkən bildirib ki, bu məsələ müzakirə edilmir və müzakirə oluna bilməz. Onun sözlərinə görə, Kirantsda bir ev, bir tövlə və bir anbar olub və bunun üçün sakinlərə razılaşma yolu ilə kompensasiya verilib: "Ümid edirəm ki, qonşu dövlətlə demarkasiya və delimitasiya prosesini yekunlaşdırıb başa çatdıracağıq. Ümid edirəm ki, bu, uğurlu olacaq və biz iki böyük fəlakətə - müharibəyə səbəb olan onilliklər boyu davam edən mübahisəyə son qoyacağıq".



# "Ermənistanın NATO sammitində iştirakı təəssüf doğurur" - Rusiya XİN

***Ermənistanın NATO-nun Vaşinqtonda keçirilən sammitində iştirakı Rusiya tərəfi üçün çox təəssüf doğurur.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin "RİA Novosti"yə müsahibəsində deyib. Qaluzin təhlükəsizlik sektoruna toxunaraq xatırladıb ki, Ermənistan KTMT-nin üzvü olaraq qalır və hərbi və hərbi-texniki sahədə bir çox ikitərəfli sazişlərin iştirakçısıdır: "İrəvanın narahatlığını müzakirə etmək üçün konstruktiv yanaşma əvəzinə, onlar təəssüf ki, fərqli yol seçdilər. Ermənistan NATO və ya alyansın ayrı-ayrı üzvləri ilə əməkdaşlığı, xüsusilə NATO standartlarının həyata keçirilməsini artırmağa üstünlük verir. Bütün bunlar həddindən artıq təəssüfdən başqa bir şeyə səbəb ola bilməz".

Diplomatın fikrincə, məqsədi Rusiyanın strateji məğlubiyyəti olanlarla belə bir sürətlə əməkdaşlığı dərinləşdirən İrəvan Cənubi Qafqazda vəziyyəti ciddi şəkildə pozmaq, o cümlədən öz ölkəsinin təhlükəsizliyinə zərər vurmaq riskini görür: "Düşünürəm ki, Ermənistanda bilikli mütəxəssislər və siyasətçilər belə ehtiyatsız addımların mümkün qiymətini başa düşürlər. Fikrimcə, iki kresloda, hətta iqtisadi sahədə bir kresloda oturmaq cəhdlərinin qeyri-real xarakterini Rusiya Baş nazirinin müavini Aleksey Overçuk Moskvada keçirilən "Primakovian oxunuşları" forumunda Avropanın bununla bağlı istəklərindən danışarkən çox açıq şəkildə ifadə etdi".



# "Pentaqonun bu addımına hərbi cavab tədbirləri hazırlayacağıq" - Rusiya XİN

***Pentaqonun Almaniyada uzaqmənzilli raketlər yerləşdirmək planları ilə əlaqədar Rusiya təhlükəyə hərbi cavab tədbirləri hazırlayacaq.***

"Unikal" xəbər verir ki, bu barədə onuncu BRİKS Parlament Forumu çərçivəsində jurnalistlərə Rusiya Federasiyası xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirib.

Ryabkov qeyd edib ki, Pentaqonun Almaniyada uzaqmənzilli raketlər yerləşdirmək planları Rusiya Federasiyasının təhlükəsizliyinə zərər vurmaq məqsədi daşıyır: "Bu hərəkətlər, ilk növbədə, ölkəmizin təhlükəsizliyinə zərər vurmaq məqsədi daşıyır".

O, həmçinin Pentaqonun Almaniyada uzaqmənzilli raketlərin yerləşdirilməsi planlarını eskalasiya halqalarından biri kimi adlandırıb.

# Stoltenberq ATACMS raketləri ilə Rusiyanın vurula biləcəyini açıqladı

***Beynəlxalq hüquqa görə, Ukraynanın özünümüdafiə hüququ var.***

"Unikal" xəbər verir ki, bu barədə NATO-nun baş katibi Yens Stoltenberq bildirib. O, Ukraynanın Rusiya ərazisinə zərbə endirmək hüququ ilə bağlı açıqlamasında deyib ki, onun bu məsələdə mövqeyi dəyişməz olaraq qalır: "Biz Ukraynaya silah və texnika, o cümlədən uzaq mənzilli raketlər, xüsusən də ATACMS verməklə özünümüdafiə hüququnu həyata keçirməyə kömək edirik". Stoltenberq həmçinin Rusiya Federasiyasının Xarkov vilayətinə yenidən hücumundan sonra ABŞ-nin Rusiya ərazisində uzaqmənzilli raketlərin istifadəsinə qoyulan məhdudiyyətləri azaltmaq qərarını alqışlayıb.



23_27 IYUI-QARA.qxd 7/11/2024 11:18 PM Page 16



# Şahmat Federasiyası Olimpiadada iştirakla bağlı şərtlərini açıqladı



***Azərbaycan Şahmat Federasiyası Ümumdünya Şahmat Olimpiadasında mübarizə aparacaq milli komandaların formalaşması və yarışda iştirakla bağlı əsas şərtləri açıqlayıb.***

Federasiyadan "Unikal"a verilən məlumata görə, yığmanın heyəti iti zəka sahiblərinin cari il ərzində daxili və beynəlxalq turnirlərdə, o cümlədən yerli yarışlar arasında ən önəmli sayılan Azərbaycan çempionatında iştirakı, onların oyun hazırlığı, federasiyanın təşkil etdiyi məşqlərə qatılması, milli komanda dəyərlərinə hörmət etmək kimi prinsiplər əsas götürülür.

Bildirilib ki, milliyə dəvət alan şahmatçı kollektivdaxili münasibətlərin və işgüzar abhavanın möhkəmlənməsində iştirak etməli, komanda ruhuna sadiq olmalı və ümumi məqsədi şəxsi prinsipindən üstün saymalıdır: "Millinin formalaşmasında şahmatçının FIDE reytinqi nəzərə alınır, lakin bu amil həlledici rol oynamır. Yığmaya namizədlər Azərbaycan Şahmat Federasiyasının İcraiyyə Komitəsinin üzvləri ilə müzakirə edilir və yekun qərar qəbul olunur".

Qeyd edək ki, sentyabrda Macarıstanın paytaxtı Budapeşt şəhərində keçiriləcək Ümumdünya Şahmat Olimpiadasında Azərbaycan həm kişi, həm də qadınlardan ibarət komandalarla təmsil olunacaq. Kişi şahmatçılardan ibarət milli komandaya Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Nicat Abasov, Aydın Süleymanlı və Məhəmməd Muradlı dəvət olunub. Qadın şahmatçılardan ibarət milli komandada isə Günay Məmmədzadə, Gövhər Beydullayeva, Xanım Balacayeva, Ülviyyə Fətəliyeva və Gülnar Məmmədova medallar uğrunda mübarizə aparacaqlar.

Milli komandanın heyəti formalaşarkən hər bir heyət üçün bir ehtiyat şahmatçı seçilib. Kişi və qadın şahmatçılardan ibarət komandalardan, müvafiq olaraq, Vasif Durarbəyli və Ayan Allahverdiyeva ehtiyat iştirakçı kimi siyahıya əlavə edilib. Milli komandanın əsas üzvləri ilə yanaşı, ehtiyatda adı qeyd olunan şahmatçılar da Azərbaycan Şahmat Federasiyası tərəfindən təqaüd proqramına daxil edilib.

Ümumdünya Şahmat Olimpiadası sentyabrın 10-dan 23-dək keçiriləcək.

# Siyasət Əsgərov: "Daha bir tarix yazmaq istəyirik"

***Qadın futbolçulardan ibarət Azərbaycan millisinin baş məşqçisi Siyasət Əsgərov Avropa çempionatının seçmə mərhələsində Macarıstan yığmasına qarşı keçiriləcək oyun haqqında danışıb.***

"Unikal" xəbər verir ki, mütəxəssis AFFA-nın saytına açıqlamasında Azərbaycanın qadın futbolu adına daha bir tarix yazmaq istədiklərini deyib:

"Sabah çox vacib oyuna çıxacağıq. Bundan öncə bir dəfə tarix yazmışıq. Pley-off mərhələsinə vəsiqə qazana biləriksə, Azərbaycanın qadın futbolu adına daha bir tarix yazmaq istəyirik. Məqsədimiz bunu reallaşdırmaqdır".



Rəqibin güclü tərəflərindən danışan S.Əsgərov Azərbaycan millisinin 2 üzvünün bu oyunu buraxacağını deyib: "Rəqibin çox keyfiyyətli futbolçulardan təşkil olunduğunu bilirik. Hazırlığımızı da buna uyğun görürük. Təəssüf ki, iki oyunçumuz - Manə Mollayeva və Peritan Bozdağ cəzalı duruma düşdükləri üçün matçda iştirak edə bilməyəcəklər. Eyni zamanda Aysun Seydiyevanın əməliyyat olunması planlarımıza təsir etdi. Buna baxmayaraq, milliyə çağırılan futbolçular komanda yoldaşlarının boşluqlarını dolduracaq gücdədirlər. Öz meydanımızda keçirəcəyimiz qarşılaşmada qələbə qazanmaq istəyirik".

Qeyd edək ki, B liqasının V turu çərçivəsində iyulun 12-də "Liv Bona Dea Arena"da keçiriləcək Azərbaycan - Macarıstan görüşü saat 20:00-da başlayacaq. Millimiz seçmə mərhələnin son turunda iyulun 16-da Lozanna şəhərində yerləşən "Olimpik De La Pontez" stadionunda İsveçrə yığması ilə qarşılaşacaq.

# Qurban Qurbanov bu ölkə millisinin baş məşqçisi postuna namizəd oldu

***"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov İrlandiya millisinin sükanı arxasına keçməyə namizədlərdən biri olub.***

İrlandiya Futbol Assosiasiyası baş məşqçi vəzifəsi üçün bir neçə mütəxəssislə maraqlanıb. Qustavo Poyet, Roy Kin və Heymur Hadlqrimsson kimi məşqçilərin olduğu siyahıda Ağdam klubunun 52 yaşlı çalışdırıcısı da yer alıb.

Qeyd edək ki, İrlandiya Futbol Assosiasiyası sonda H.Hadlqrimssonla müqavilə imzalayıb.

# Arda Gülərin forma nömrəsi dəyişdirildi



***"Real Madrid" yeni mövsümdə bir çox futbolçunun forma nömrələrinin dəyişdiyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, "Real Madrid"in türkiyəli futbolçusu Arda Gülər bundan sonra 15 nömrəli formanı geyinəcək.

Komandanın yeni transferi olan Kilian Mbappe isə Kərim Benzemanın gedişindən sonra boş qalan 9 nömrəli formanı daşıyacaq.

Qeyd edək ki, bundan əvvəl Arda Gülərin forma nömrəsi 24 idi.

*Zərifə Nağıyeva*

# Zidanın oğlu "Real Madrid"i II liqa klubuna dəyişdi

***Fransalı veteran futbolçu Zinəddin Zidanın oğlu Teo Zidanın yeni klubu bəlli olub.***

"Unikal" xəbər verir ki, 22 yaşlı yarımmüdafiəçi azad agent kimi "Kordoba" komandasına keçib. Onunla 2 illik müqavilə imzalanıb.

"Real Madrid"in yetirməsi olan T.Zidan son olaraq klubun ikinci komandasında çıxış edib.

Qeyd edək ki, "Kordoba" yeni mövsümdə İspaniya Sequndasında mübarizə aparacaq.

# "Real"ın müdafiəçisi "Napoli"yə keçdi



***İtaliyanın "Napoli" klubu "Real"ın müdafiəçisi Rafa Marinin komandalarına keçdiyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə İtaliya klubunun mətbuat xidməti məlumat yayıb.

22 yaşlı Marinlə imzalanan müqavilənin təfərrüatları açıqlanmır. Marin "Real"ın tələbəsidir.

Əvvəlki mövsümdə icarə əsasında "Alaves"də çıxış edib. Marinin transfer dəyəri 7,5 milyon avrodur.

*Ağarza Elçinoğlu*

# Kolumbiya millisi Uruqvayı məğlub edərək finala yüksəldi

***ABŞ-ın ev sahibliyi etdiyi Amerika Kubokunda ikinci finalçı məlum olub.***

"Unikal" xəbər verir ki, 1/2 final mərhələsində Uruqvay və Kolumbiya yığmaları üz-üzə gəlib. Görüş kolumbiyalıların 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Həlledici mərhələyə vəsiqə qazanan Kolumbiya seçməsi Argentina ilə qarşılaşacaq. Matç iyulun 15-də baş tutacaq.

Üçüncü yer uğrunda keçiriləcək Kanada - Uruqvay görüşü isə iyulun 14-də təşkil olunacaq.

# Məşhur klubun prezidenti həbs olundu

***İspaniyanın "Vilyarreal" komandasının prezidenti Fernando Roç həbs olunub.***

Buna funksionerin vergi dələduzluğunda adının hallanması səbəb olub. O, 11 ay 28 gün həbs cəzasına məhkum edilib. F.Roça ilə yanaşı klubda işləyən daha iki idarəçi də cinayət cəzası alıb.

Məlumata görə, təqsirləndirilən şəxslər komandanın ev stadionunun yenidən qurulması ilə bağlı sənədləri manipulyasiya ediblər. Dələduzluğun 525 440 avro məbləğində olduğu bildirilib.